❒ № 112 (5634), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günәş Şәrqdәn doğur!

www.sherg.az 29 iyun 2022-ci il (çәrşәnbә)

## Cәlilabadda kartof kәskin ucuzlaşıb

Mәhsul әkin sahәlәrindә çürüyür



**Cәlilabad rayonunda kartof әkin sahәlәrindә çürüyür.**

**Bu barәdә fermerlәr mәlumat verib.**

Onların sözlәrinә görә, әvvәllәr qiymәtlәr münasib olsa da, son günlәr mәhsulun qiymәtinin aşağı düşmәsi onları çәtin vәziyyәtә salıb:

"Mәhsulumuz boldur, amma alıcı yoxdur. Kartof yığımı davam edir. Mәhsulun qiymәtlәrinin kәskin şәkildә aşağı düşmәsi vә mәhsulun satışındakı durğunluq bizi narahat edir.

(sәh.7)

## Gürcüstan buğda ixracına qadağa qoyur



**İyulun 4-dәn Gürcüstan yerli istehsal olan buğda vә arpanın ixracına qadağa tәtbiq edәcәk.**

"Report"un yerli bürosu xәbәr verir ki, bu barәdә qәrarı Gürcüstan hökumәti qәbul edib.

Qәrar ölkәdә buğda defisitinә yol vermәmәk mәqsәdi daşıyır.

İxrac qadağası bir il müddәtindә - 2023-cü ilin iyulun 4-dәk qüvvәdә olacaq.



## Ağır işlәrdә çalışanların pensiyaya çıxma şәrtlәri yüngüllәşdirilir

**Axırıncı iş yerindәn asılı olmayaraq, güzәştli şәrtlәrlә yaşa görә әmәk pensiyası almaq hüququ verәn incәsәnәtin xüsusi sahәlәrinin, yeraltı, әmәk şәraiti xüsusilә zәrәrli vә ağır olan işlәrin (istehsalatların, peşәlәrin, vәzifәlәrin vә göstәricilәrin) Nazirlәr Kabinetinin tәsdiq etdiyi siyahısında nәzәrdә tutulan işlәrdә çalışanların güzәştli şәrtlәrlә әmәk pensiyası hüququ dәyişir.**

Bu, Prezident İlham Əliyevin tәtbiqi barәdә fәrman imzaladığı "Əmәk pensiyaları haqqında" qanuna dәyişiklikdә әksini tapıb.

(sәh.2)



## Prezident Gürcüstanın Baş nazirinә zәng edib

Dövlәtimizin başçısı İrakli Qaribaşviliyә ad günü münasibәtilә tәbriklәrini çatdırıb

**Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-dә Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyә zәng edib.**

Dövlәtimizin başçısı İrakli Qaribaşviliyә ad günü münasibәtilә tәbriklәrini çatdırıb, ona fәaliyyәtindә uğurlar, möhkәm cansağlığı arzulayıb.

İrakli Qaribaşvili göstәrilәn diqqәtә vә tәbrikә görә dövlәtimizin başçısına minnәtdarlığını bildirib.

Prezident İlham Əliyev vә Baş nazir İrakli Qaribaşvili ölkәlәrimiz arasında dostluq münasibәtlәrinin müxtәlif sahәlәrdә uğurlu inkişafından mәmnunluq ifadә edәrәk, әlaqәlәrimizin bundan sonra da möhkәmlәnәcәyinә әmin olduqlarını bildiriblәr.

Söhbәt zamanı ikitәrәfli münasibәtlәrin perspektivlәri vә qarşılıqlı maraq doğuran digәr mәsәlәlәr әtrafında fikir mübadilәsi aparılıb.

## Azәrbaycanda vәtәndaşlara pensiya növünü seçmәk hüququ verilib



**Azәrbaycanda vәtәndaşlara pensiya növünü seçmәk hüququ verilib.**

Bu, Prezident İlham Əliyevin "Əmәk pensiyaları haqqında" qanuna dәyişiklik etmәsi ilә mümkün olub.

Belә ki, yaşa görә әmәk pensiyası növündәn әlilliyә görә әmәk pensiyası növünә keçidlә bağlı istisna aradan qaldırılıb. Belәliklә, bütün növ әmәk pensiyalarına keçmәk mümkün olacaq. Bununla da pensiyaçıların ya әlilliyә, ya da yaşa görә pensiya seçmәk hüququ yaranır.

# Türkiyә razılaşdı

## Bu gün İsveç vә Finlandiyanın NATO-ya üzvlüyü barәdә qәrar verilәcәk




**Finlandiya vә İsveç bütün terror tәşkilatlarının Türkiyәyә qarşı hәyata keçirdiyi hücumları açıq vә birmәnalı şәkildә pislәyirlәr, PKK vә bütün digәr terror tәşkilatlarının vә әlaqәli şәxslәrin fәaliyyәtinin qarşısını almağı öhdәsinә götürürlәr.**

Bu barәdә Madriddә üç ölkә arasında imzalanan memorandumda deyilir.

Sәnәdә üç ölkәnin xarici işlәr nazirlәri imza atıb.

Qeyd olunur ki, bu iki ölkә terrorla mübarizә üzrә milli qanunvericiliyә düzәlişlәr etmәk öhdәliyini üzәrlәrinә götürürlәr.

İsveç tәsdiq edir ki, yeni vә daha effektiv "Terror Cinayәtlәri Qanunu" iyulun 1-dәn qüvvәyә minәcәk.

Finlandiya vә İsveç Türkiyәnin tәqdim etdiyi mәlumatlar, sübutlar vә kәşfiyyat mәlumatları nәzәrә alınmaqla, terrorda şübhәli bilinәn şәxslәrin deportasiya vә ya ekstradisiya tәlәblәrinә tez bir zamanda baxacaq.

(sәh.3)

# Ermәnilәr Laçını tәrk etmәyә mәcburdur

Paşinyanın açıqlaması İrәvanın artıq prosesә hazırlaşdığını demәyә әsas verir



**Laçın dәhlizi vә Laçın şәhәri Azәrbaycana verilәcәk. Bunu Ermәnistanın Baş naziri Nikol Paşinyan deyib.**

Ermәni baş nazir bildirib ki, 10 noyabr bәyanatına әsasәn, üç il әrzindә tәrәflәrin razılığı ilә Laçın dәhlizinin marşrutunda dәyişiklik edilmәlidir.

Dәyişiklikdә mәqsәd Ermәnistanla Qarabağın dağlıq hissәsi arasında daha dayanıqlı vә etibarlı yol marşrutunu tәmin etmәkdir.

(sәh.4)



## ABŞ Rusiyaya qarşı sanksiyaları genişlәndirib

**ABŞ Rusiyaya qarşı sanksiyaları genişlәndirib.**

APA TASS-a istinadәn xәbәr verir ki, ABŞ Maliyyә Nazirliyi Rusiyanın daha 57 fiziki şәxsinә vә 110 şirkәtinә qarşı sanksiya tәtbiq edib.

Sanksiyalara düşәnlәr arasında jurnalist Tina Kandelaki, keçmiş müdafiә naziri Anatoli Serdyukov vә ailә üzvlәri, hәmçinin, "Kamaz", "Tupolyev" vә s. şirkәtlәr dә var.

## Vәfat edәn olmayıb

Azәrbaycanda daha 12 nәfәr COVID-19-a yoluxub




**Azәrbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 12 yeni yoluxma faktı qeydә alınıb, 18 nәfәr müalicә olunaraq sağalıb.**

Nazirlәr Kabineti yanında Operativ Qәrargahdan "Şәrq"ә verilәn mәlumata görә, COVID-19 üçün götürülәn analiz nümunәlәri müsbәt çıxmış şәxslәr arasında vәfat edәn olmayıb.

Azәrbaycanda indiyәdәk ümumilikdә 793 188 nәfәrin koronavirus infeksiyasına yoluxması faktı müәyyәn edilib. Onlardan 783 316 nәfәr müalicә olunaraq sağalıb, 9 717 nәfәr vәfat edib, aktiv xәstә sayı 155 nәfәrdir.

*Ötәn son sutka әrzindә 1 849, hazırkı dövrәdk isә 6 957 854 test aparılıb.*

## Göyçayda 11-ci sinif şagirdi suda boğularaq ölüb



**Göyçay rayonunda yeniyetmә oğlan bәdbәxt hadisә nәticәsindә dünyasını dәyişib.**

APA-nın yerli bürosunun xәbәrinә görә, Bığır kәnd sakini - 16 yaşlı Qurbanov Əlibala Yalçın oğlu bu gün axşam saatlarında Qızılağac kәndi әrazisindәki su arxında dostları ilә birgә çimәrkәn ehtiyatsızlıqdan boğulub.

Əraziyә gәlәn polis әmәkdaşları 11-ci sinif şagirdi Əlibala Qurbanovun meyitini sudan çıxararaq ailәsinә tәhvil veriblәr. Faktla bağlı Göyçay rayon Prokurorluğu tәrәfindәn araşdırma aparılır.



## Siyavuş Novruzov tәklif sәslәndirdi

"Bütün müharibә veteranlarının aylıq tәqaüdü artırılsın"

(sәh.3)

## Bәlkә dә hәkim xanım intihar etmәyib

Ginekoloqun ölümünә tәsadüfi qәza, diqqәtsizlik dә sәbәb ola bilәr



(sәh.5)

# Azərbaycan Zəfərinin ardınca iqtisadi gücünü sərgiləyir

## Prezidentin səfərləri Kəlbəcər və Laçının çox qısa müddət ərzində inteqrasiyasının ilkin mesajlarıdır



**İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri davam etdirilir. Qarabağa Böyük Qayıdış prosesinə start verilib. İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfərə yollanıb.**

Dövlət başçısı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub. Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlərlə bağlı məlumat alıb.

Dövlət başçısına Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi, Kəlbəcər şəhərinin baş planı verilib. Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub.

Sonra Prezident İlham Əliyev Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" kiçik su elektrik stansiyasına baş çəkib.

**Görülən işləri "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, Prezidentin səfərləri konkret məqsədlər daşıyır:** "Böyük qayıdışa hazırlıq niyyətinin ciddiliyi ortaya qoyulur. Azərbaycan bölgədə hərbi qüvvəsinin ardınca iqtisadi gücünü sərgiləyir. Bu səfərlər Kəlbəcər və Laçının çox qısa müddət ərzində inteqrasiyasının ilkin mesajlarıdır.

Artıq Laçın məsələsinin bir an öncə bitməsinə yönəlmiş konkret addımlar atıldığı nəzərə çarpır. Prezidentin Qarabağa səfəri Ermənistanın daxili siyasi təlatümlərilə nəticələnir. Dövlət başçısının səfərlərindən dərhal sonra Ermənistanın Baş naziri Nikol Paşinyanın Laçın haqda verdiyi açıqlama ölkədə vətəndaş qarşıdurması ilə müşayiət edilir. Separatçılar, revanşistlər Paşinyanın əleyhinə qalxıblar. Ermənistanda öhdəlik götürən, hüquqi məsuliyyətli şəxs Paşinyandır. Otuz ilin cinayətləri, terror olayları, xalqımıza qarşı tötədilən soyqırımı günahkarlarının, revanşistlərin, separatçıların bəziləri həyatdadır. Müharibə zənglərinin tez-tez səslənməsi fonunda bizim üçün şans və imkan doğura bilər. Bu şans da Azərbaycan bölgələri üzrə hər dəfə Prezidentin reallaşdırdığı xüsusi təyinatlı hərbi hissələrlə əlaqədardır".

**Aygün Tahir**

# Prokurorluq işçisi vəfat etdikdə onun ailə üzvlərinə şərti əmək pensiyası veriləcək



**Prokurorluq işçisi vəfat etdikdə onun ailə üzvlərinə şərti əmək pensiyası veriləcək.**

**Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Əmək pensiyaları haqqında" qanunda əksini tapıb.**

Qanuna əsasən, prokurorluq işçisi, yaxud prokurorluq işçisi kimi əmək pensiyasına əlavələri almaq hüququ olan əmək pensiyaçısı vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinə vəfat etmiş prokurorluq işçisinin qulluq stajına görə şərti əmək pensiyası və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödəniləcək.

*Qeyd edək ki, "Əmək pensiyaları haqqında" qanuna edilən yeni - 1.0.1-1-ci maddəyə əsasən, şərti əmək pensiyası ailə başçısını itirməyə görə əmək pensiyasının hesablanması zamanı şəxsin vəfat etdiyi tarixə əməkhaqqına (təminat xərcliyinə, dövlət məvacibinə) münasibətdə hesablanan şərti pensiya məbləği olacaq.*

# "Üçtərəfli İşçi Qrupun fəaliyyətini konstruktiv sayıram"

## Paşinyanın müavini: "İrəvanla Bakı kommunikasiyaların bərpası üzrə bəzi məsələlərdə mövqelərini yaxınlaşdırıb"



**Regional kommunikasiyaların açılması ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya Baş nazir müavinlərinin başçılıq etdiyi İşçi Qrup Bakı və İrəvanın bir çox məsələlər, o cümlədən sərhəd və gömrük nəzarəti ilə bağlı mövqelərini yaxınlaşdıra bilib.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryan bildirib.

"Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasına dair Üçtərəfli İşçi Qrupun fəaliyyətini konstruktiv sayıram. Bu, şübhəsiz ki, çətin işdir, amma qeyd etməliyəm ki, tərəflərə sərhəd və gömrük nəzarətinə dair bir sıra məsələlər, həmçinin, Azərbaycan və Ermənistan ərazilərindən vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin avtomobil və dəmir yolu vasitəsilə təhlükəsiz hərəkətinə dair mövqelərini yaxınlaşdıra bilib", - o deyib.

Qriqoryan qeyd edib ki, hazırda ekspert altqrupları avtomobil və dəmir yolu infrastrukturunun bərpası və qarşıdakı istifadəsinə dair məsələlər üzərində işini davam etdirir.

# Ağır işlərdə çalışanların pensiyaya çıxma şərtləri yüngülləşdirilir



**Axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin) Nazirlər Kabinetinin təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə çalışanların güzəştli şərtlərlə əmək pensiyası hüququ dəyişir.**

Bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı "Əmək pensiyaları haqqında" qanuna dəyişiklikdə əksini tapıb.

İndiyə qədər qüvvədə olan qanuna görə, axırıncı iş yerindən asılı olmayaraq yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, həmçinin əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan siyahısı üzrə) çalışan sığortaolunanların: kişilər - 60 yaşına çatdıqda, azı 25 il sığorta stajına malik olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə, qadınlar - 55 yaşına çatdıqda, azı 20 il sığorta stajına malik olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışmışlarsa və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə, əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olub.

Dəyişikliyə əsasən, axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ olacaq.

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə əsasən, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var. Bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

# Bakıda Cümhuriyyət parkı salınmalıdır

## "Məzarları xarici ölkədə olan cümhuriyyətçilərin qəbirləri də Azərbaycana gətirilsin"



**"Cümhuriyyət qurucularının məzarları Azərbaycana gətirilməlidir". Bu barədə Milli Məclisin növbədənkənar iclasında millət vəkili Qüdrət Həsənquliyev bildirib. Deputat deyib ki, indiki Cümhuriyyət abidəsi binaların arasında görünməyən yerdədir:**

"Abidənin belə görünməz yerdə olması nə Cümhuriyyətin adına, nə də mərhum Heydər Əliyevin abidələrin qoyulması ilə bağlı sərəncamına layiq addımdır. Bakının mərkəzi hissələrində olan və xarabalığı xatırladan köhnə binalar sökülsün və yerinə Cümhuriyyət parkı salınsın. Həmin parkda Cümhuriyyət abidəsi ucaldılsın. Məzarları xarici ölkədə olan cümhuriyyətçilərin qəbirləri də Azərbaycana gətirilsin. Məsələn, Ankaradan Məhəmməd Əmin Rəsulzadənin, Parisdən parlamentin rəhbəri olmuş Əlimərdan bəy Topçubaşovun, eləcə də Tbilisidən hökumət rəhbərlərinin məzarları Azərbaycana gətirilməlidir".

**İsmayıl**

# Bakı Bəyannaməsi qəbul edilib

## İƏT Turizm Nazirlərinin 11-ci Konfransı işini başa çatdırıb




**İslam Əməkdaşlığı Təşkilatının Turizm Nazirlərinin 11-ci Konfransı işini başa çatdırıb. İyunun 28-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Bakıda keçirilən İslam Əməkdaşlığı Təşkilatının Turizm Nazirlərinin 11-ci Konfransında Turizmin İnkişafı üzrə Qətnamə və Bakı Bəyannaməsi qəbul edilib.**

"Turizmin İnkişafı üzrə Qətnamə" sənədində azad olunmuş torpaqlarda təbii resursların qeyri-qanuni istismarı, ekosistem və şəhər infrastrukturunun, xüsusilə mədəni və tarixi irsin məhv edilməsi, eləcə də Ermənistan ərazisində İslam mədəni və tarixi abidələrinin dağıdılması pislənilib. Həmçinin qətnamədə Azərbaycanın işğaldan azad olunan torpaqlarında infrastrukturun inkişafı layihələrinin icrasına üzv dövlətlərin özəl sektorunun cəlb edilməsi imkanları haqqında qərar qəbul edilib. "Bakı Bəyannaməsi" sənədində qarşılıqlı maraqlar əsasında üzv ölkələr arasında sağlamlıq, eko, mədəni və kənd turizminin inkişafı, birgə təşəbbüslərin dəstəklənməsi, sərgilərdə iştirak üzrə əməkdaşlıq, dayanıqlı turizmin inkişafı istiqamətində müştərək tədbirlərin həyata keçirilməsi, İslam mədəni və tarixi irsinin qorunması və təbliği, turizmin İslam haqqında təsəvvürlərin təkmilləşməsində oynayacağı rol, maliyyə institutlarının və özəl sektorun üzv dövlətlərdə turizmə investisiya qoyuluşuna cəlbi kimi məsələlər öz əksini tapıb. Konfransda İƏT üzvlərinin turizm nazirlərinin növbəti 12-ci görüşünün Mərakeş Krallığında keçirilməsi qərarlaşdırılıb. Həmçinin 2023-cü il üçün Türkiyənin Şanlıurfa şəhəri və 2024-cü il üçün isə Özbəkistanın Xiva şəhəri İslam Dünyasının paytaxtı seçilib. Konfransda təşkilata üzv dövlətlərin turizm nazirləri və nazir müavinləri, səfirlər, İƏT-in 7 alt institutu olan beynəlxalq təşkilatların təmsilçiləri, dövlət rəsmiləri və ekspertlər daxil olmaqla 39 ölkədən 160-dan artıq nümayəndə iştirak edib. Konfrans iştirakçılarının iyunun 29-da Şuşa şəhərinə səfəri nəzərdə tutulur.

# Öhdəliklər qısa müddətdə yerinə yetirilməlidir

## Ermənistan Bakının xəbərdarlıqlarını ciddiyə almalıdır



**İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib. Ölkə başçısı Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxış edib.**

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək: "Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

"Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir", - Prezident İlham Əliyev qeyd edib.

**Prezidentin mesajlarını "Şərq"ə şərh edən sabiq XİN başçısı Tofiq Zülfüqarov bildirib ki, Ermənistanın yerinə yetirməli olduğu öhdəliklər var:** "10 noyabr bəyanatı Ermənistan üçün bir növ kapitulyasiya aktı idi. Orada məğlub olan tərəf - Ermənistan həm bizim qarşımızda, həm də vasitəçi Rusiyanın qarşısında xeyli öhdəliklər götürüb. İl yarımdan çox müddətin keçməsinə rəğmən, bəzi öhdəliklər yerinə yetirilmir".

T.Zülfüqarovun sözlərinə görə, Ermənistan öz üzərinə düşənləri etməkdən boyun qaçırır: "Təbii ki, bu, qəbuledilməzdir. Bu baxımdan Azərbaycan vəziyyəti nəzərə alaraq tələb edir ki, sözügedən öhdəliklər həyata keçirilsin. Bu, real və adekvat bir siyasətdir. Çünki ermənilər bir çox hallarda, xüsusilə də Qarabağ məsələsində köhnə siyasəti həyata keçirmək niyyətindədirlər. Verilən bəyanat Azərbaycanın Ermənistana ciddi xəbərdarlığıdır".

**Çimnaz Şahlar**



# Ermənilər Kəlbəcərdə səslənən mesajları eşitdi

## Prezidentin xəbərdarlığının motivi “sülh olmazsa, ikinci “Dəmir yumruq” olacaq” mövqeyinə söykənirdi

İsmayıl Qocayev

**“Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək”. Bu barədə Prezident İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinin açılışı zamanı deyib. Dövlət başçısı vurğulayıb ki, əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq:**

”Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: ”Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın”. Ölkə rəhbəri qeyd edib ki, Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır: ”Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir”.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Prezident İlham Əliyevin Kəlbəcərdə komando hərbi hissəsinin açılışında çıxışı postmünaqişə dövründə Azərbaycanın qazandığı hərbi-siyasi üstünlüklərinin elanı kimi şərh edilə bilər. Analitik vurğulayıb ki, bu, sayca dördüncü komando hərbi hissəsidir:** ”Azərbaycan Ordusunda elit qüvvələrin hərbi hissə və şəxsi heyət olaraq sayı artır. Dövlət başçısı İlham Əliyevin Kəlbəcərdə, Ermənistanla sərhəddə rəsmi İrəvana ünvanladığı xəbərdarlıq mesajlarının motivi ”sülh olmazsa, ikinci ”Dəmir yumruq” olacaq” mövqeyinə söykənirdi. Azərbaycan dövləti müharibədən sonrakı periodda Ermənistanla sərhəddə mövqelərini önəmli şəkildə möhkəmləndirib. Sərhəd boyunca nəzarəti həm vizual, həm texniki imkanlarla genişləndirmə işlərini davam etdirir. Prezidentin öz çıxışında ”Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır” deməsi həmin istiqamətdə sistemli işin davam etdiriləcəyinin bəyanıdır. Ermənistanla sərhəddə ən müasir silahların yerləşdirilməsi ilə bu ölkəyə doğru atəş məsafəsi daha da qısaldılacaq. Azərbaycan Ordusu danışıqların nəticəsindən asılı olmayaraq sərhəddə mövqeləri irəli çəkəcək. Bunun üçün əsaslı səbəblər mövcuddur. Azərbaycan mövqelərdə möhkəmlənmə xəttindən kənara çəkilsə, bu, Ermənistan üçün vaxt qazanmaq və revanşist meyillərin oyanması fürsətinə çevrilər. Bakı isə bu fürsətlərin ipucunu belə, Ermənistana göstərmək niyyətindən uzaqdır. Azərbaycanın mövqelərdə möhkəmlənmə işlərini davam etdirməsi ara-sıra atəş səsləri ilə müşahidə olunacaq.

> Azərbaycan dövləti müharibədən sonrakı periodda sərhəddə mövqelərini önəmli şəkildə möhkəmləndirib

Azərbaycan hərbi-siyasi üstünlüklərlə yanaşı, iqtisadi parametlərlə də Ermənistan üzərində güclü təzyiq dalğası yaratmağa nail olub. Azərbaycanın hərb variantı üstün seçim kimi görünsə də, bu, əslində Ermənistan üzərində iqtisadi mühasirənin gücləndirilməsi prosesi ilə paralel aparılır”.

Ekspert qeyd edib ki, Ermənistan sərhədinə doğru yol çəkilişinin həyata keçirilməsi də (Laçın və Kəlbəcərdən) həmin iqtisadi konsepsiyanın bir elementidir: ”Həmin yolların uzunluğu 700 kilometr olacaq və bu, hərbi təminatın gücləndirilməsi və optimallaşdırılmasını stimullaşdıracaq. Dövlət başçısı İlham Əliyevin Kəlbəcərdəki bəyanatı hərbi perspektiv baxımından senarini də özündə ehtiva edir. Ölkə başçısının açıqlamasının ardından Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın müharibəyə hazırlaşdığını iddia etdi. Ənənəvi erməni bicliyinin təcəssümü olan Paşinyan bu açıqlama ilə üç auditoriyaya ismarış ünvanlayır. Birincisi, Ermənistandakı revanşist qüvvələrə xəbərdarlıq edir ki, İrəvanın sülh gündəliyini Bakının şərtləri altında qəbul etməkdən başqa çarəsi yoxdur. Əks təqdirdə Azərbaycan tarixi ərazilərini (Qərbi Zəngəzur) geri qaytaracaq. Digər yandan beynəlxalq aləmdən dəstək istəyir və Azərbaycana qarşı cəbhə açmağa çalışır. Həmçinin, Ermənistan əhalisini sülhə inandırmağa cəhd edir və öz hakimiyyətini möhkəmləndirmək üçün indidən arqumentlər toplayır”.

**A.Kərimova görə, Paşinyanın müharibəyə dair açıqlaması Ermənistanın aciz mövqeyini göstərir:** ”Artıq İrəvan münaqişə dövründə olduğu kimi hədə səsləndirmir. Azərbaycanın Qərbi Zəngəzur kontekstində də asanlıqla yeni reallıq yarada biləcəyini qəbul edir. ”Azərbaycan müharibə istəyir” deyən Paşinyan elə həmin gün Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Laçın şəhərinin və Zabux kəndinin Azərbaycana təhvil veriləcəyini söyləyib. O, bu ərazilərdə yaşayan ermənilərin yaşayış evləri ilə təmin olunacağını bildirib. Bununla da Paşinyan Qarabağda və Şərqi Zəngəzurda yaşayan erməni əhalinin təhlükəsizliyinə dair Azərbaycanın şərtlərini qəbul etmiş kimi görünür. Yəni həmin ərazilərdə məskunlaşan ermənilərə deyir ki, siz Azərbaycan bayrağı altına keçsəniz, daha xoşbəxt ola bilərsiniz. Erməni əhali bu şərti qəbul etməsə, o zaman Paşinyan hökumətinin üzərinə əlavə yük düşəcək. Paşinyan komandası özü həmin ermənilərin köçünü təşkil etməli və onlara Ermənistanda yuva qurmalıdır ki, bu da İrəvana sərf etmir. Şərqi Zəngəzur bölgəsində Ermənistan təxribatlar törədəcək və cavabını alacaq. Erməni əhali faktoru bəzi problemlər yaradacaq, amma Azərbaycan bu mənasız dirənişə qarşı reseptləri dövriyyəyə salacaq. 10 noyabr bəyanatının 4-cü maddəsinin icrası sürətlənəcək. Çünki yaranan mənzərədə onların əl-qol açması üçün lazımi məsafə qalmır”.

# Türkiyə razılaşdı

## Bu gün İsveç və Finlandiyanın NATO-ya üzvlüyü barədə qərar veriləcək




**Finlandiya və İsveç bütün terror təşkilatlarının Türkiyəyə qarşı həyata keçirdiyi hücumları açıq və birmənalı şəkildə pisləyirlər, PKK və bütün digər terror təşkilatlarının və əlaqəli şəxslərin fəaliyyətinin qarşısını almağı öhdəsinə götürürlər.**

Bu barədə Madriddə üç ölkə arasında imzalanan memorandumda deyilir.

Sənədə üç ölkənin xarici işlər nazirləri imza atıb.

Qeyd olunur ki, bu iki ölkə terrorla mübarizə üzrə milli qanunvericiliyə düzəlişlər etmək öhdəliyini üzərlərinə götürürlər.

İsveç təsdiq edir ki, yeni və daha effektiv ”Terror Cinayətləri Qanunu” iyulun 1-dən qüvvəyə minəcək.

Finlandiya və İsveç Türkiyənin təqdim etdiyi məlumatlar, sübutlar və kəşfiyyat məlumatları nəzərə alınmaqla, terrorda şübhəli bilinən şəxslərin deportasiya və ya ekstradisiya tələblərinə tez bir zamanda baxacaq.

Bundan əlavə, İsveç və Finlandiya Türkiyəyə qarşı müdafiə sənayesi sahəsində embarqo məhdudiyyətlərinin qaldıraraq əməkdaşlığı artıracaq.

NATO-nun baş katibi Yens Stoltenberq Türkiyə, Finlandiya və İsveç arasında imzalanan üçtərəfli memorandumdan məmnunluğunu ifadə edib.

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, o, bildirib ki, NATO ölkələrinin liderləri sabah İsveç və Finlandiyanı Alyansa üzvlüyü barədə qərar verəcək.

# Ermənistan "postmüharibə sindromu"ndan əziyyət çəkir

## Hərbi cəhətdən daha da güclənən Azərbaycanın sülh çağırışlarına qeyri-adekvat münasibət sərgiləmək siyasi korazehinlikdir

**Prezident İlham Əliyevin Kəlbəcərdə yeni komando hərbi hissəsinin açılışı zamanı çıxışında səsləndirdiyi bəyanatlar erməni cəmiyyətində və hakimiyyətdə geniş rezonans doğurub.**

Dövlət başçısının birbaşa Ermənistanla sərhəddən - Kəlbəcərdən Paşinyan hökumətinə, Robert Koçaryan-Serj Sarkisyan cütlüyünün başçılıq etdiyi revanşist erməni müxalifətinə sərt xəbərdarlığı erməni mediasında ciddi müzakirələrə səbəb olub.



**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə bildirib ki, ölkə başçısı İlham Əliyev rəsmi İrəvana və revanşist ermənilərə açıq ismarıc göndərdi.** Partiya təmsilçisi qeyd edib ki, 30 illik işğala son qoyaraq öz torpaqlarını azad edən və müharibədən sonra həm iqtisadi, həm də hərbi cəhətdən daha da güclənən Azərbaycanın sülh çağırışlarına qeyri-adekvat münasibət sərgiləmək siyasi korazehinlikdir: ”Rəsmi Bakının davamlı sülh təkliflərinin qarşılığında siyasi avantürizmlə məşğul olmaq cəhdləri onu göstərir ki, hazırda Ermənistan iqtidarı da, erməni müxalifəti də ”postmüharibə sindromu”ndan əziyyət çəkir. Dövlət başçısı İlham Əliyevin son bəyanatları məhz onları reallıq hissinə qaytarmağa, məğlub Ermənistanın sülhdən başqa bir yollarının qalmadığını bütün ermənilərə başa salmağa hesablanıb. Ermənistan sərhədlərin dəqiqləşdirilməsi və sülh sazişinin imzalanmasına hazırlıq prosesini gecikdirəcəyi təqdirdə gerçəkdən də peşman olacaq. Bu baxımdan, Baş nazir Nikol Paşinyandan tutmuş İrəvanın ”Fransa meydanı”nda davamlı etiraz aksiyaları keçirən radikal-revanşist müxalifətçilərə qədər, hər bir erməni anlamalıdır ki, artıq ”dənizdən dənizə Ermənistan”, ”Böyük Ermənistan”, ”Miatsum” kimi təcavüzkar-faşist ideyaları tarixə gömülüb. İndi tarixi ədalətin bərpası dövrüdür. Erməni cəmiyyəti bundan sonra illüziyalarla, mifik arzularla yaşamamalıdır. 44 günlük müharibə nəticəsində Azərbaycanın qazandığı hərbi-siyasi üstünlüklər bundan sonra qalıcı olacaq. Bax, bu həqiqəti hər bir erməni dərk etməlidir”.

Ə.Hüseynov bəyan edib ki, Nikol Paşinyan da pozucu, qeyri-adekvat açıqlamalarına son qoymalıdır: ”Onun söylədiyi bəzi əsassız fikirlər və ittihamlar bu adamın adekvat siyasətçi olmadığını göstərir. Ümumiyyətlə, erməni xalqı son 30 ildə siyasi liderlər baxımından heç vaxt yarımayıb”.

**İsmayıl Qocayev**

# Siyavuş Novruzov təklif səsləndirdi

## “Bütün müharibə veteranlarının aylıq təqaüdü artırılsın”

**Milli Məclisin növbədənkənar iclasında 2022-ci ilin dövlət büdcəsinə dəyişiklik layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. İclasda Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və digər rəsmilər iştirak ediblər. İclasda 15 məsələ müzakirə olunub.**

Dövlət büdcəsində artırılan və xərclər arasında yerdəyişmələrin hesabına yaranan ehtiyat vəsaitlərin yönəldiləcəyi istiqamətlər açıqlanıb. Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili büdcəyə dəyişiklikdə nəzərdə tutulan məsələlərlə bağlı məlumat verib: ”Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol-nəqliyyat infrastrukturunun yaradılması, həmçinin ölkəmizin digər regionlarında nəqliyyat-kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi üzrə layihələrin maliyyələşdirilməsi üçün 1 477 milyon manat nəzərdə tutulub. Müdafiə qabiliyyətinin və hərbi qüdrətin daha da artırılması, Milli təhlükəsizlik sahəsində tədbirlərin maliyyələşdirilməsi üçün 588 milyon manat ayrılıb. Sosial müdafiə sahəsinə 519 milyon manat, ərzaq təhlükəsizliyi üçün tədbirlər üzrə əlavə ehtiyatların yaradılması üçün - 193 milyon manat nəzərdə tutulub. 2022-ci ildə Ümumi Daxili Məhsulun həcminin 115.4 milyard manat, xam neftin bir barelinin orta illik qiymətinin isə 85 dollar olacağı proqnozlaşdırılır. Artırılan gəlirlərin 65 faizi qeyri-neft, 35 faizi isə neft gəlirləri hesabına formalaşacaq. Dövlət Vergi Xidməti xətti ilə yığılan vergilərin 2.9 milyard manat, Dövlət Gömtük Komitəsi xətti ilə daxilolmaların isə 345 milyon manat artırılması təklif olunur”.

**Milli Məclisin Regional Məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Birinci və İkinci Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri və qazilər arasında fərq qoyulmamalıdır:**




**Nazir:** “Biz müharibə veteranlarını daha çox məşğulluğa cəlb etmək istəyirik. Çünki onlar əmək qabiliyyəti olan şəxslərdir”

”Birinci Qarabağ müharibəsində 4 il sərasər iştirak edən oğullarımız olub. Onlar sərhədlərimizi silahsız, hakimiyyətsiz qoruyublar. Birinci və İkinci Qarabağ döyüşçüləri arasında fərq qoyulmamalıdır”. Deputat təklif edib ki, bütün müharibə veteranlarının aylıq təqaüdü artırılsın: ”Veteranların müavinəti 80 manatdan 130 manata çatdırılmalıdır. Müharibə veteranlarının müavinəti qaldırılmalıdır ki, heç olmasa, onlar kommunal xərclərini ödəyə bilsinlər”.

**“Sosial ödənişlərlə bağlı daimi islahatlar fonunda bu məsələyə də yenidən baxılacaq”**

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev veteran təqaüdünün artırılması təklifinə cavab verib:** ”Birinci və İkinci Qarabağ müharibəsi veteranlarına heç bir halda fərq qoyulmur və qoyulmayacaq. Bu, dövlət siyasətidir. 2 il öncə müharibə iştirakçılarına verilən müavinətlər 50 faizdən çox artırıldı. Sosial ödənişlərlə bağlı daimi islahatlar fonunda bu məsələyə də yenidən baxılacaq. Amma biz müharibə veteranlarını daha çox məşğulluğa cəlb etmək istəyirik. Çünki onlar əmək qabiliyyəti olan şəxslərdir”.

**Nazir neftin büdcədə 85 dollar olmasına aydınlıq gətirdi**

**Maliyyə naziri Samir Şərifov 2022-ci ilin dövlət büdcəsinə dəyişikliklər nəticəsində neftin bir barelinin qiymətinin 85 dollar səviyyəsində götürülməsinə aydınlıq gətirib:** ”Riskləri nəzərə alaraq neftin qiymətinin dövlət büdcəsində 75 ABŞ dollarına qədər endirilməsi təklif edildi. 2022-ci ilin beş ayında ”Azeri Light” markalı xam neftin bir barelinin orta ixrac qiyməti 106,3 dollara bərabər olub. 5 ay ərzində daxil olan vəsaitləri və növbəti 7 ayı üzrə daxil olacaq vəsaiti nəzərə alaraq, neftin bir barelinin orta qiymətinin 85 dollar götürülməsi məqsədəuyğundur”.

**“Seyid cəddinə əmin olan kimi, neft-qaz gəlirlərinə arxayın olmamalıyıq”**

**Deputat Siyavuş Novruzov bildirib ki, seyid cəddinə əmin olan kimi, neft-qaz gəlirlərinə arxayın olmamalıyıq:** ”Neft və qazın artması, azalması iqtisadi yox, siyasi mövzudur. Heç bir iqtisadçı əvvəlcədən proqnozlaşdıra bilməz ki, neftin qiyməti nə qədər arta bilər. Bunu proqnozlaşdıra bilənlər siyasətçi adlanır”.

**“Ermənistan boyun qaçırır, ordumuzda isə ciddi işlər aparılır”**

**Millət vəkili Mahir Abbaszadə qeyd edib ki, Ermənistan tərəfi hələ də sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində konstruktiv mövqe nümayiş etdirmir.** Deputat əlavə edib ki, müdafiə xərclərinin də artırılmasına ehtiyac var: ”Cənab Prezident iyunun 26-da Şərqi Zəngəzura səfəri zamanı müdafiə xərclərinin artırılmasını və ən müasir silahların alınmasını bəyan etdi. Bildiyiniz kimi erməni tərəfi hələ də demarkasiya və delimitasiya prosesini ləngidir və hər vəchlə boyun qaçırmağa çalışır. Belə olan halda Azərbaycan öz işini görür. Müasir silahların alınması, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı ciddi işlər aparmaqdadır. Və etiraf etməliyik ki, bunlar böyük vəsaitlər tələb edir”.

Mahir Abbaszadə ərzaq təhlükəsizliyi ilə bağlı da fikirlərini bölüşüb. Millət vəkili qeyd edib ki, dünyada yaranmış ərzaq problemi Azərbaycanı gələcəkdə yarana biləcək ərzaq böhranı ilə bağlı ehtiyatlarını toparlamağa və bu sahəyə ciddi maliyyə vəsaiti ayırmağa vadar edir.

**“Əhalimizin sosial müdafiəsi daha da gücləndiriləcək”**

**Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, ölkəmizin iqtisadi gücü artdıqca, əhalinin sosial müdafiəsi istiqamətinə də daha ciddi diqqət yetirilir:** ”Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Müdafiə Fondunun büdcəsindəki artımlar bizim əhalimizin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək. DSMF-nin büdcəsinin həm gəlirlər, həm xərcləri bərabər olaraq, 295 milyon manat artırılacaq. Bunların böyük bir hissəsi Cənab Prezidentin sərəncamı ilə vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən maddi yardımın ödənilməsinə təminat yaradır”.

Èñìàéûë Ãîúàéåâ

# MƏLƏKLƏRİN RUHANİYYƏT XANASI...

Murat Baykal

**"Allah öz göstəriş və tapşırıqlarını vermək üçün mələklərlə göy-qurşağında görüşür. Göy-qurşağı mələklərin xanasıdır".**
*Ustad Seyid Məhəmmədhüseyn Şəhriyar*

**Görkəmli sənətkarımız, Azərbaycan-türk muğamlarının şahbanusu Rübabə xanım Muradovanın yadigarı hesab etdiyim Azərbaycan Xalq artisti Mələkxanım Əyyubova haqda yazdığım bu ədəbi-essedə sirlər xəzinəsi olan milli sərvətimizlə bağlı bəzi düşüncələrimi oxucularla bölüşməyi lazım bildim. Əsl sənətin gerçəkliyindən söz açmadan, birbaşa sənətkardan danışmaq, zənnimcə, yağsız və şəkərsiz halvaya bənzər.**

**Keçək mətləbə!**



Azərbaycanın muğam sənəti böyük mədəniyyətin, dövlətimizin və millətimizin musiqi ənənəsinin ən parlaq təcəssümüdür. Azərbaycan muğam sənəti xalqımızın genezisi, təfəkkür dünyası, poeziyası ilə sıx bağlı olub onun mənəvi aləminin ümumbəşəri tərənnüm obyektidir. Azərbaycan muğam sənətinin daha da inkişaf etməsi və Avrasiya məkanında bütün bölgələrə yayılaraq dünyanı fəth etməsi üçün artıq zəngin ifaçılıq ənənəsi yaranmış və bu müqəddəs, şərafətli, mülki-cahan arzuların günəş kimi doğmasına dövlət səviyyəsində diqqət və şərait xeyli artırılmışdır. Ələlxüsus bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti **Mehriban Xanım Əliyeva**nın muğamsevərləri ruhlarından qayğıkeşliyi və gənc sənətçilərə himayədarlığı musiqimizin dönməzliyi və sönməzliyidir.

Dünya şöhrətli alim, ürək cərrahiyyəsinin təməldaşlarından biri sayılan, professor, doktor Cavad Heyət görüşlərimizin birində maraqlı bir fikir söylədi. Görkəmli elm və mədəniyyət xadimi, Ulu Öndərimizin ən yaxın dostlarından biri olan, ustad şairimiz Şəhriyarın hər mənada havadarı sayılan Cavad Heyət dedi ki: **Azərbaycan-Türk şeiriyyətinin Xanqızı-Xanzadəsi Xurşid Banu Natəvan Camalımız, çağdaş mədəniyyətin Şahzadəsi-Şahbanusu Mürşüd Banu Mehriban Cəlalımızdır!**

Musiqi janrlarının muğam janrı qədər unikal bir sənət növü olmadığını söyləsək heç də mübaliğə etmərik. Görkəmli mədəniyyət xadimi, sənətşünaslıq doktoru, Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru Rafiq İmrani "Muğam tarixi" kitabında yazır ki, hər bir xalqın məişəti, adət-ənənəsi ilə bağlı olan folklor musiqi nümunələri, mərasim, məişət mahnıları, xalq mahnı və rəqsləri spesifik xüsusiyyət daşımaqla aidiyyətinə görə mənsub olduğu xalqa şamildir.

Bu mənada ərazicə yaxın qonşu olan xalqların folkloru biri-birindən nəzərəçarpacaq dərəcədə fərqlidir. Azərbaycan, türk, fars, kürd, özbək, qazax, türkmən və s. xalqların nəğmələri, şərqiləri, hətta rəqsləri melodik dilinə, metroritmik xüsusiyyətlərinə, ifa üslubuna görə biri-birindən kəskin surətdə ayrılır. Bu musiqilərin hamısı mənşəcə müxtəlif xalqlar tərəfindən, müxtəlif dövrlərdə fərdi, özünəməxsus səciyyədə yaradılmışdır. Bu da hər şeydən əvvəl onların ayrı-ayrı köklərdən ibarət olmasını sübut edir. Fəqət muğam sənətində belə kəskin fərq hiss olunmur. Muğamlar yalnız zahirən fərqlidirlər. Azərbaycanda, İranda, Türkiyədə, Ərəbistanda, Özbəkistanda, Qazaxıstanda ifa edilən muğam sənət nümunələrinin qarşılıqlı təhlili göstərir ki, muğam sənəti ayrı-ayrı xalqlar tərəfindən yaradılmayıb.

Professor İmrani sübut edib ki, muğamatın etnik kökü birdir, vahiddir, yeganədir! Bu kök yalnız və yalnız Azərbaycan-türk xalqı ilə bağlıdır. Məhz buna görə də vahid kökdən olan Azərbaycan muğam sənəti digər xalqların yaradıcılığında inkişaf formasına və milli informasiya çeşidlərinə görə bir-birindən fərqlənir. Başqa-başqa bölgələrdə ifa edilən muğamlar ilk növbədə milli koloritə, ifa xüsusiyyətlərinə görə bir-birinə bənzəmirlər. Bu da hər şeydən əvvəl muğam dəsgahlarımızın milli zəmində formalaşıb inkişaf etməsi ilə əlaqəlidir. Qarabağ Şirvan, Mil-Muğan, Bakı, Naxçıvan muğam ifaçılığı sənətində səs sistemi və xüsusi spesifik dönmələr, zəngulələr, burun zümzümələri, çənə oynatmaları, xırdalıqlar var ki, onlar Azərbaycan milli xüsusiyyətlərini müəyyənləşdirir və bunların cəmindən də milli kolorit, milli təfəkkür və təkamül məktəbini təmsil edən ənənəvi və toxunulmaz, müqəddəs və bakirə ifaçılıq üslubu yaradır. Azərbaycan muğamları və fars dəsgahları lad etibarı ilə eyni olsa da (səs sistemlərindən irəli gələn cüzi fərqi nəzərə almasaq) onların ifa tərzi müxtəlif üslublarda həyata keçirildiyi üçün bu muğamların təsir dairəsi bir-birinə ziddir. Belə ifa rəngarəngliyi məhz musiqi sənətinin milli və mənəvi çalarlarını üzə çıxarır və onu milliləşdirir.

Muğamların kim və hansı bölgənin və yaxud hansı xalqın nümayəndəsinin ifa etməsindən asılı olmayaraq, onun lad əsası qeyd etdiyimiz kimi müəyyən fərqi nəzərə almasaq eynidir. Onları fərqləndirən əsas cəhət səs sistemi və ifaçılıq üslublarıdır. Eyni zamanda muğamların müxtəlif xalqlar, bölgələr və məmləkətlər arasında ifa formalarına, struktur quruluşlarına fikir versək görərik ki, "mənşəcə bütün muğamların kökü birdir" fikri özünü təsbit edir. Azərbaycan, Özbəkistanda, Tacikistanda, İranda və Ərəbistanda ifa edilən muğamların adları da əksərən eynidir. Ancaq Özbəkistanda və Tacikistanda muğamın adlarında mövcud olan sait səslər dəyişdirilib. Bu dəyişiklik yalnız dialektlə bağlıdır. Məsələn, Segah-Cerox, Çazargah-Çarqox, Dügah-Duqox və s.

Professor İmrani yazır ki, muğam ifaçılığında milli ifa tərzi səs sistemindən, ifa üslubundan, seçilmiş qəzəlin doğma dildə tələffüzündən, eyni zamanda dialektindən asılıdır. Danışıq ahənginin qanunauyğunluqları zəminində muğamın melodik dilinin ritmik xüsusiyyətləri ilə qəzəlin bəhrinin tam uyğun seçilməsinin milli koloritə böyük təsiri var. Əruz vəznində olan qəzəllərin uzun və qısa hecaları muğamın melodik inkişaf xəttinin ritmik komponentləri ilə üst-üstə düşərsə, bu zaman xanəndə uzun hecalarla muğam boğazlarını, səs çalarlarını, müxtəlif musiqi boyalarını, xırdalıqları sərbəst ifa edə bilir. Belə ifaçılıqla milli dəyərlərə xas cəhətlər, tərənnüm üslubları, sənətkar səriştəsi daha qabarıq şəkildə üzə çıxır. Xanəndəlik sənətində İran fars, Azərbaycan (Təbriz) və Azərbaycan (Qarabağ, Şirvan) məktəbləri arasında hiss olunacaq dərəcədə fərq var. İran muğam məktəbinin zəngulələrində xanəndə uzun titrəyişləri ağız nahiyəsində olan çanağa salır və boğaz telləri vasitəsilə bu titrəyişlər əlaqələndirilir, uyğunlaşdırılır. Azərbaycanda ustadlaşan xanəndələr isə, o cümlədən Mələkxanım Əyyubova zəngulələri boğaz telləri vasitəsi ilə ifa edirlər. Belə ifa üslubları da zahirən səslənmə etibarı ilə bir-birindən seçilir. Ümumiyyətlə, xanəndəlik sənətində bir neçə cür oxuma üslubu var ki, bu da Azərbaycan xanəndəlik məktəbini fars, ərəb, özbək, qazax və s. xalqların xanəndəlik məktəblərindən yetərincə fərqləndirir.

Azərbaycan xanəndəlik sənətində mövcud olan dörd növ oxuma üslubu Mələkxanım Əyyubovanın məharətlə naxışladığı bu dörd növ muğamat xanasının ilmələri əksər sənətçilərin vurduqları naxışları üstələyib. Əfsuslar olsun ki, bəzi muğam sevənlər elə zənn edirlər ki, zəngulə "banlamaq və ulamaqdır". M.Ə.Sabir yazır ki,

Banlamayın, banlamayın cücələr
Banlamamaqdır sizə əhdim mənim.

Yerli-yersiz "banlamamaq" və ya "ulamamaq" üçün möhtəşəm musiqi peyğəmbəri Bülbülün "Füzuli təsnifləri"ni vaxtaşırı dinləmək və dərk etmək zəruridir. Bülbülün muğam məktəbi təfəkkür və təkamülün nəğmələşən sədasıdır! Bülbül muğam məktəbi dəmirçilik yox, zərgərlik sevir. Muğamın zərgərlik zərifliyini qoruyan Mələkxanım Əyyubovanın hər zaman sadiq qaldığı dörd növ oxuma üsulu aşağıdakılardır.

1. Boğazda oxuma üslubu
2. Başdan gələn səs
3. Çənənin köməyi ilə oxuma üslubu
4. Burunda oxuma (zümzümə)

Boğazda oxuma üslubunda xanəndə səs tellərinin vasitəsi ilə ağciyərdən gələn hava axınını ağız boşluğuna ötürür. Oradan isə səs axını ağız vasitəsilə havalanır. Bu cür oxuma üslubunda əsas güc səs tellərinin üzərinə düşür.

Başdan gələn səs termini ustad xanəndələrin arasında çox işlənir. Belə oxuma üslubu ilə səs axını ağız boşluğunun arxa divarları vasitəsilə çanağa oxşar boşluğa verilir. Səs burada bir növ rezonansa gəlib ağız vasitəsilə kənara ötürülür. Səsin burada xaricə ötürülməsi bir növ əks-sədaya bənzər tərzdə səslənir.

Çənə ilə oxuma üslubunda səs ağız boşluğuna verilərkən çənə vasitəsilə orada vibrasiya (səsin ritmik titrəyişi) əldə olunur. Çənənin yan tərəfə tez və ya gec hərəkəti ilə vibrasiyanın sürətini artırıb azaltmaq olur. Bu üsul ilə çox vaxt muğam qəzəllərinin son uzun hecaları oxunur.

Burunda oxuma (zümzümə) üslubu səsin zərifliyini, kövrəkliyini əks etdirməyə imkan yaradır. Burunda oxumada səs daha təsiredici, qəm gətirən olur. Adətən rəngarəng səs çalarlığı yaratmaqdan ötrü, təkrar olunmuş hər qəzəl beytindən biri zümzümə ilə oxunur. Eyni zamanda xanəndədən asılı olaraq qəzəllər və qoşmalar bütünlükdə və ya bir hissəsi zümzümə ilə oxuna bilər. Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, Mütəllim Mütəllimov, Yaqub Məmmədov, Arif Babayev, Hacıbaba Hüseynov, Ağaxan Abdullayev, Rübabə Muradova, Sara Qədimova, Yavər Kələntərli bu üslubdan məharətlə istifadə ediblər. Ümumiyyətlə, "Segah" muğamlarını burun zümzüməsi göynətməsə bilin ki, ocağın palıd közünü şam yonqarı dəyişib.

Cabbar Qaryağdı oğlu məclislərin birində qırx il istifadə etdiyi xanəndə dəfini yetirməsi olan gənc Xan Şuşinskiyə bağışlayanda Qurban Pirimov soruşub ki, "Ay Cabbar, qırx ilin sədaqətli dostuna necə qıydın?". Cabbar əmi cavab verir: "Axır ki, arzuma çatdım. Mənim kimi burnunda zümzümə göyərdən xanəndəmiz yetişib".

Qırx ildən çox yaradıcılığına hörmət bəslədiyim, Baba dağının nəğməkar sonası Mələkxanım Əyyubova ilə bağlı bir neçə xatirəmi yada salmağım yerinə düşər. 1982-ci ilin Novruz günləri ərəfəsində yurdumuzun "Acınohur" qışlağında "Çoban baharı" bayram şənliyinə bəstəkar Rəşid Nəsiboğlunun rəhbərlik etdiyi "İrs" ansamblı da dəvət olunmuşdu. Ansamblın gənc solisti Mələkxanım Əyyubova qışlağın dörd bir yanını bürüyən Novruz tonqallarının əhatəsində "Qaragilə" mahnısını nə cür oxudusa, bəstəkar dostumuz Rəşid Nəsiboğlu üzünü gözləri dolan ustad şairimiz Məmməd Araza tutub dedi: "Şair, gözlərin dolmasın. Muğamat dünyamıza ikinci Rübabə xanım gəlir".

Məmməd Araz gülümsəyib Rəşid Nəsiboğluna dedi: "Rəşid, sənin üçün ikinci Rübabə xanım, mənim üçün ikinci Sara xanım gəlir".

1992-ci ilin yanvar ayında Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov başda olmaqla respublikanın 100-dən çox dövlət, təsərrüfat adamları, elm, mədəniyyət və incəsənət xadimləri yenicə müstəqil olmuş Azərbaycanın ilk elçiləri kimi qardaş Türkiyə Cümhuriyyətinə rəsmi səfərə getmişdik. Mən o zaman Dövlət Radio və Televiziya Verilişləri Şirkətinin sədri vəzifəsində çalışırdım. Ozamankı mədəniyyət nazirimiz, indiki Rusiyadakı səfirimiz Polad Bülbüloğlunun məsləhət bildiyi bir dəstə musiqiçi də, o cümlədən Mələkxanım Əyyubova və Aşıq Zülfiyyə İbadova da səfərin iştirakçıları idilər. Səfərin ikinci günü Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın və baş nazir Süleyman Dəmirəlin iştirakı ilə nümayəndə heyətimizin şərəfinə rəsmi ziyafət təşkil edilmişdi. Məclisin şirin yerində Mələkxanım "Segah" təsnifini necə oxudusa, Zülfiyyə xanım "Yanıq Kərəm"ini nə cür çaldısa, Turqut Özal hər ikisini rəhbərliyin oturduğu süfrəyə dəvət elədi. Ələlxüsus Mələkxanımın Rübabə sayağı vurduğu xallar Türkiyə prezidentini kövrəltmişdi. Turqut Özal Mələkxanımdan soruşdu ki, "Can Azərbaycanda hansı sahədə çalışırsınız? Mələkxanım cavab verdi ki, işsizəm. Turqut Özal üzünü Zülfiyyə xanıma tutub soruşdu ki, yavrum, sən necə? Zülfiyyə xanım da cavab verdi ki, mən də işsizəm. Turqut Özal üzünü hər ikisinə tutaraq dedi: Bizim "teletenin" başqanı Aydın bəy məclisdədir. Bakıda iş tapılmırsa, Ankarada tapılar. Ayaz Mütəllibov bu vəziyyətdən xeyli pərt olmuşdu. Onu toxtatmaq üçün, əcaib səhnəni qapamaq üçün Turqut Özala yaxınlaşıb dedim: "Sayın Cümhur Başqanım! Dünən səfərə çıxmamış bu qızların hər ikisinin əmri verilib. Dünəndən etibarən hər ikisi AzTV-nin solistləridir. Qızlar xəbərsizlər". Yalan deyirdim. Əlbəttə, Bakıya qayıdan gün hər ikisini şirkətə işə götürdük. Qızlar bəxtəvərlər kimi səhnə tərəfə dönəndə, Turqut Özal mənə işarə elədi ki, yaxın gəl. Yaxınlaşdım Turqut Özalın dilindən aşağıdakı kəlmələri eşitdim: "Murat bəy, sizdən bir diləyim var. Məleykəmizdən muğayat olun. Onun mürşüd avazında insana ruh verən ruhaniyyəti var". Hərdən düşünürəm ki, qardaş Türkiyəmizin prezidenti Turqut Özalın ruhunu oxşayan Mələkxanım Əyyubova, prezident Süleyman Dəmirəlin ruhunu oxşayan Qarabağın sona bülbülü Sara Qədimova olub. Görəsən, Prezident Rəcəb Tayyib Ərdoğanın ruhunu oxşayan sənətçimiz kim olacaq?!

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov Azərbayan-türk muğamlarının özəyində pöhrələnən bu dörd növ oxuma üslubunu təhlil edərək yazır ki, "Rast", "Şur", "Segah", "Şüştər", "Çahargah", "Bayatı-Şiraz" və "Humayun" Azərbaycan-türk musiqisinin yeddi əsas ladıdır.

Lad nədir? Lad musiqinin səs sırasının quruluşu, səslərin yerləşdirilməsi üsulu, musiqi əsərlərinin, xüsusən də muğamların həm cismidi, həm ruhu. Bir sözlə, Üzeyir bəy bizlərə izah edir ki, yeddi muğam ladımız həm qan damarımızdır, həm də can damarımız!

Muğamların dadına, ruhumuzun ladına toxunmaq olmaz, dəyişmək olmaz!

Mələkxanım sənətə gəldiyi gündən çalışıb ki, "şaqqıltısı, şırıltısı" ruhumuzu didən yırtıcı caynaqlardan, gecə-gündüz xalqın hesabına yağ-bal içində üzüb, millətə ayran satan "qaymaq"lardan, kök salmayan, kök atmayan, həm köksüz, həm də gövdəsiz budaqlardan, öz rəngini, ahəngini silmək üçün "dad dəyişən, lad dəyişən, ulduzlardan, dad dəyişən meyvələrdən, sinəsində qurd bəsləyən meyvələrdən, zövqümüzü, qəlbimizi, ömrümüzü keyləşdirən iynələrdən" uzaq olsun. Bayağı dünyanın giriş yolu bayağı musiqidən başlayır. Əslində bu gün meydan sulayan musiqiyə bayağı musiqi yox, "cındır sayağı" musiqi deyilməlidir. "Cındırın" axırı "andır" olmasa zövqümüzü bit basacaq. Mədəniyyət könül xoşluğudur, gödəniyyət qarın boşluğu! Mədəniyyət aş qazanıdır, gödəniyyət xaş qazanı! Təbii musiqinin yarğanı da var, xırmanı da! Dəni də var, dəyirmanı da! Kürəsi, təndiri də var, yağı-şoru-pendiri də! Əfsuslar olsun ki, indiki "dilingilərin" unu var, şəkəri var, yağı var, fəqət halvası yoxdur! "Balvankalar, fanaqramlar, aranjimanlar, şansanetkalar, şansonlar, şlyagerlər, replər, poplar, roklar" doğma ladlarımızı yadlaşdıran "həftəbecər-ləvəngilər" zəmanəsinin ən ağrılı mərəzi budur ki, **melodiya yoxa çıxıb. Melodiyasız həyat gözləri kor olmamış, ürəyi kor olanların manqurt düşərgəsidir.** Ruhaniyyət avazımız ülviyyətə ruh verməsə, qalan da yazıqdır, gedən də yazıq! Güdən də yazıqdır, didən də yazıq!

Ağzımızın, süfərimizin, ruzumuzun dadını dəyişsələr birtəhər dözmək olar. Vay o günə ruhumuzun, ladımızın dadını dəyişələr. **Həmin gün "manqurt"luq tapacaq bizi. Bax, onda ustad Şəhriyarın söylədiyi "mələklərin göy qurşağı" "tüləklərin gey qurşağı" olacaq!**

Yazımı "Segah"ın pərvanəsi sayılan Rübabə Muradovanın yadigarı, "Bayatı-Kürd"ün divanəsi olan Qulu Əsgərovun yetirməsi Mələkxanım Əyyubovaya həsr etdiyim kiçik bir şeirlə tamamlayıram.

Söz kəramət sultanıdır, muğam qüdrət dastanı
Məmləkətdi, səltənətdi, xilafətdi muğamat!

Həyat giriş qapısıdı, ölüm çıxış qapısı,
Şəhadətdi, ziyarətdi, ibadətdi muğamat!

Qəlbimizin cövhəridi, ruhumuzun gövhəri
Təravətdi, lətafətdi, gülafətdi muğamat!

Şəkərində mərhəmət var, nə sınır, nə sındırır
Dəyanətdi, mətanətdi, fəzilətdi muğamat!

Yorulmayan möcüzədi, pozulmayan kitabə
Ülviyyətdi, şərafətdi, ləyaqətdi muğamat!

Yandıranı yandırandı, donduranı donduran
Xoş ülfətdi, sədaqətdi, məhəbbətdi muğamat!

Rübabənin yadigarı Mələkxanım bilir ki,
Yavər, Şövkət, Sara, Zeynəb, Həqiqətdi muğamat!

**P.S. "Azərbaycan-Türk" musiqisinin müşərrəf sona bülbülü Mələkxanım Əyyubovanın bənövşə yaşı mübarək, yasəmən ömrü hümayun olsun!**

**Çağdaş Azərbaycan-Türk mədəniyyətinin Şahbanusu Mehriban xanım Əliyevadan niyaz edirəm ki, şərafətli sənət yolunun ruhlar oyadan sənətkarı, Rübabə xanım Muradovanın yadigarı kimi tanıdığımız Mələkxanım Əyyubova şərəf künyəsinə layiq görülsün.**

# Ermənilər Laçını tərk etməyə məcburdur

## Paşinyanın açıqlaması İrəvanın artıq prosesə hazırlaşdığını deməyə əsas verir

**Laçın dəhlizi və Laçın şəhəri Azərbaycana veriləcək. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib. Erməni baş nazir bildirib ki, 10 noyabr bəyanatına əsasən, üç il ərzində tərəflərin razılığı ilə Laçın dəhlizinin marşrutunda dəyişiklik edilməlidir.**




"Çıxarılacaq ermənilərin hara köçürüləcəyi vacib məqamdır. Ermənistana, yoxsa Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərinə?"

Dəyişiklikdə məqsəd Ermənistanla Qarabağın dağlıq hissəsi arasında daha dayanıqlı və etibarlı yol marşrutunu təmin etməkdir. Laçın şəhəri və Zabux kəndinin əhalisinə gəlincə, Paşinyan bildirib ki, Bakı ehtiyacı olanları evlə təmin edəcək.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Laçın şəhəri və Zabuxun təmizlənməsi prosesində üç mümkün perspektiv ola bilər. Analitikin fikrincə, orada qalan ermənilər çıxmağa etiraz edəcəklər:** "Çatlaq səslər artıq eşidilir, lakin razılaşma var. Paşinyanın açıqlaması İrəvanın artıq prosesə hazırlaşdığını deməyə əsas verir. Bununla yanaşı, məsələ Rusiyaya üçtərəfli razılaşmada "irəliləyiş" olduğunu göstərmək baxımından lazımdır. Digər tərəfdən bölgədən çıxmaq istəməyən, ancaq məcbur edilən ermənilər geridə qalanları məhv edəcək. Müharibədən sonra evlərə od vurduqlarını görmüşük, analoji addımın Laçın şəhərində və Zabuxda da atılacağı istisna deyil. Çıxarılacaq ermənilərin hara köçürüləcəyi vacib məqamdır. Ermənistana, yoxsa Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərinə? Paşinyan bu ermənilərin mənzillə təmin ediləcəyini deyir, lakin mənzilin harada veriləcəyini açıqlamır. Mənzilin Ermənistan hökuməti tərəfindən təmin ediləcəyini nəzərə alsaq, onların Ermənistan ərazisinə köçürüləcəyi məntiqi ortaya çıxır. Hərçənd, Qarabağa - separatçıların olduğu ərazilərə köçürülmələri də istisna deyil. Xüsusilə sülhməramlıların olduğu bölgədə ermənilərin sayının artırılması istəyi fonunda bu mümkündür".

**A.Nərimanlıya görə, Azərbaycan tərəfi bu məsələyə xüsusi diqqət yetirməlidir:** "Laçın şəhəri və Zabuxda yaşayan ermənilər Ermənistanın müxtəlif yerlərindən və Yaxın Şərqdən bu bölgəyə köçürülüb. Onlar "Qarabağ erməniləri" deyil. Həm də Qarabağda hazırda qalan ermənilərin əksəriyyətinin sonradan bölgəyə köçürülənlər olduğu ayrı bir həqiqətdir. Misal üçün, Zabuxun qondarma "icma rəhbəri" Çavuşyan 2014-cü ildə Suriyanın Qamışlı şəhərindən Laçına gəlib. 2016-cı ildə Zabuxa köçüb, 44 günlük müharibədə başının dəstəsi ilə Azərbaycana qarşı döyüşüb. Bakı bu ermənilərin Qarabağa gətirilməməsi, eyni zamanda, evlərin və digər obyektlərin məhv edilməməsi məsələsini rusların qarşısında qaldırmalıdır".

**İsmayıl Qocayev**

## Azərbaycanla Qırğızıstan arasında yeni şura yaradılır



**Azərbaycanla Qırğızıstan arasında yeni şura yaradılır.**

Trend-in məlumatına görə, Milli Məclisin dünən keçirilən iclasında "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarılıb.

*Sənəd səsverməyə qoyularaq qəbul edilib.*

## Ukrayna ilə Rusiya arasında növbəti dəfə əsirlərin mübadiləsi baş tutub



**İyunun 28-də Ukrayna ilə Rusiya arasında əsirlərin mübadiləsi növbəti dəfə həyata keçirilib.**

Mübadilə zamanı Ukraynanın 16 hərbçisi və bir mülki şəxsi qaytarılıb. Rusiyanın isə 15 hərbçisi təhvil verilib.

Bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, iki zabit və 14 əsgər də daxil olmaqla 16 ukraynalı hərbçi Rusiya əsirliyindən qayıdıb. Həmçinin bir mülki şəxs də əsirlikdən azad edilib.

"Sərbəst buraxılan beş nəfər ağır yaralıdır və təcili müalicəyə ehtiyacları var", - deyə məlumatda vurğulanıb.

# Kəlbəcərdə turizm potensialı böyükdür

## Dünya bu cənnətməkan ərazilərə axın edəcək



**"Prezident İlham Əliyevin Göygöl, Laçın Kəlbəcər rayonlarına səfəri zamanı etdiyi açılışlar, Kəlbəcərdə komando hərbi hissəsinin açılışını etməsi Ordumuzun 104-cü ildönümünə ən böyük hədiyyə oldu".**

*Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili Naqif Həmzəyev deyib. Deputat deyib ki, artıq Azərbaycanda komanda hərbi hissələri çoxalmaqdadır:* "Bu da Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşməsinə, modernləşməsinə xidmət edir. Ali Baş Komandanın məhz Silahlı Qüvvələrin 104-cü ildönümündə Kəlbəcərdə belə bir açılışı reallaşdırması, əsgərlərin, zabitlərin qarşısında çıxışı, Kəlbəcərdən Ermənistana xüsusi mesajlar ötürməsi Azərbaycanın postmünaqişə dövründə çox uğurlu daxili və xarici siyasət yeritdiyini bir daha sübut edir. Cənab Prezident bir daha şəhidlərimizi, qazilərimizi yad etdi. Gənclərimizin vətənpərvər ruhda yetişdirildiyini vurğuladı. Azərbaycanın güclü dövlət olduğunu səsləndirdi. Ermənistanın da digər beynəlxalq güclər kimi Azərbaycanın yaratdığı reallığı anlamağın, bu fonda hərəkət etməyin vacib olduğunu bildirdi".

**Parlament üzvü vurğulayıb ki, dövlət başçısı tez-tez işğaldan azad edilmiş ərazilərə səfərlər edir, görülən işlərlə şəxsən maraqlanır, nəzarət edir:** "Ötən müddət ərzində Kəlbəcərdə, Laçında sürətli quruculuq, abadlıq işlərinin şahidi olmuşuq: "Kəlbəcərə, Laçına rahat gedə bilmək üçün yollar çəkilir, tunellər inşa edilir. Toğanalı, Kəlbəcər yolunun ən müasir tələblərə cavab verəcək şəkildə salınması bizi sevindirir. Bununla yanaşı bölgənin elektrik enerjisi ilə təminatı üçün Su Elektrik Stansiyaları (SES), yarımstansiyalar tikilir və Azərbaycanın ümumi elektrik şəbəkəsinə qoşulur. Bu da çox vacib amillərdən biridir. Burada istehsal olunan enerjinin ekoloji cəhətdən təmiz olması ərazilərin "yaşıl enerji" konsepsiyasına uyğun olacağını göstərir. Kəlbəcər Azərbaycan üçün çox önəmli rayondur. Turizm potensialı böyükdür. Cənab Prezident tərəfindən burada "İstisu" sanatoriyasının əsasının qoyulması da göstərir ki, ən qısa zamanda bölgədə turizm infrastrukturu bərpa ediləcək. Dünya bu cənnətməkan ərazilərə axın edəcək. Artıq Füzuli beynəlxalq hava limanı istifadəyə verilib. Zəngilan hava limanı tezliklə açılacaq. Laçında da beynəlxalq hava limanının təməli qoyulub. Bu isə bölgəyə təyyarə vasitəsi ilə səfərlərin ediləcəyindən xəbər verir".

**İsmayıl**

# Tarixi şans yaranıb

## Türkiyə-Ermənistan münasibətləri ikinci plana keçməyib

**Türkiyə və Ermənistanın xüsusi nümayəndələri - səfir Sərdar Kılıç və parlament sədrinin müavini Ruben Rubinyan arasında növbəti görüş iyulun 1-də olacaq.**

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. Görüş Avstriyanın paytaxtı Vyanada keçiriləcək. Qeyd edək ki, Ruben Rubinyan Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması prosesində Ermənistanın rəsmi təmsilçisidir. Türkiyə tərəfdən bu istiqamətdə danışıqlara Türkiyənin ABŞ-dakı keçmiş səfiri Sərdar Kılıç başçılıq edir. Nümayəndələr arasında artıq üç dəfə: - yanvarın 14-də Moskvada, fevralın 24-də və mayın 3-də Vyanada görüş olub.

**Vahdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə deyib ki, Ukrayna ətrafında baş verən hadisələr fonunda Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan münasibətləri heç də ikinci plana keçməyib.** Partiya funksioneri bildirib ki, bölgəmizdə qərbin və Rusiyanın maraqları bir an da olsun aktuallığını itirməyib: "Mütəmadi olaraq ən yüksək səviyyədə səfərlər davam edir. Bu yaxınlarda Rusiya Xarici işlər naziri Lavrovun region ölkələrinə səfərləri də diqqət mərkəzindədir. Hazırda Rusiyanın Suriya və Qarabağda fiziki müdaxiləsinin zəifləmiş vəziyyətindən yararlanmaq üçün növbəti tarixi şans yaranıb. Azərbaycan Prezidentinin Kəlbəcərdə Ermənistana növbəti xəbərdarlığı ciddi mesajdır. Paşinyan təşviqə düşərək guya sülh prosesinə Azərbaycanın mane olduğunu dilə gətirdi. Əslində Paşinyanın bəyanatı ikibaşlıdır. İlk növbədə Paşinyan





erməni ictimaiyyətinə mövcud durumu anladır və Azərbaycanın təklif ediyi sonucu ən əlverişli həll yolu olduğunu çatdırmaq istəyir. Əks təqdirdə daha pis variantla üzləşəcəklərini bildirir. İkincisi isə ermənilərə və dünya ictimaiyyətinə çatdırır ki, "biz müharibəyə hazır deyilik və Azərbaycanın qəfil hücumuna məruz qala bilərik".

V.Əfəndiyevə görə, Türkiyə ilə Ermənistanın arasındakı münasibətlərin daha da yaxşılaşdırılması vacib və günün tələblərindən olan şərtdir: "Biz torpaqlarımızın böyük hissəsini işğaldan azad etmişik. Danışıqlar ərəfəsində mütəmadi olaraq üstünlüyümüzü göstərmək şərti ilə diktəmizi edirik. Ermənistan ya bizim şərtləri qəbul edəcək, ya da zorla qəbul etdiriləcək. Türkiyə dəfələrlə sübut etdi ki, atdığı bütün addımlar iki qardaş ölkənin maraqlarına tam uyğundur. Azərbaycan və Türkiyə güclü dövlət nöqteyi-nəzərindən çıxış edərək həm də region ölkəsi Ermənistanın maraqlarını təmin etmək üçün çalışmaqdadır".

**İsmayıl**

# Bəlkə də həkim xanım intihar etməyib

## Ginekoloqun ölümünə təsadüfi qəza, diqqətsizlik də səbəb ola bilər



**Paytaxtda daha bir intihar hadisəsi qeydə alınıb. Hadisə Yasamal rayonunda baş verib. Yayılan məlumata görə, ginekoloq-həkim, 38 yaşlı Xalidə Kəngərli yaşadığı çoxmərtəbəli binadan özünü atıb. O, aldığı xəsarətlərdən hadisə yerində vəfat edib. Faktla bağlı Yasamal Rayon Prokurorluğunda araşdırma aparılır.**

İntihar etdiyi bildirilən şəxsin həkim-ginekoloq olması daha çox təəccüb doğurur. Bu mənada ki, bir yeniyetmənin, gəncin intihar etməsini şəxsin formalaşmaması, hisslərinə hakim ola bilməməsi kimi anlaşılan, hardasa, qəbul edilən amildirsə, yetişkin bir insanın, həm də ali təhsilli, həkim ixtisasına yiyələnmiş, insanlara sağlamlıq bəxş edən şəxsin həyatına qəsd etməsinin izahını vermək çox çətindir.

**Psixoloq Elnarə Eyyubova isə hesab edir ki, intiharın "yaş kateqoriyası" yoxdur. "Şərq"ə açıqlamasında psixoloq qeyd etdi ki, intihar hadisəsi yaşla, peşəylə, cəmiyyətdəki statusla, mövqe ilə əlaqəli deyil:**

- İntiharın "yaş həddi" olmadığı kimi "peşəsi", "statusu" da yoxdur. İntihar insanın ruh halıyla birbaşa bağlıdır. Sosial status, cəmiyyətdəki mövqe, maddi imkan, yaş həddi... bunlar intiharla müqayisə olunan deyil. Həyatı normal şərtlər altında keçən, həyatı zahirən problemsiz görünən insan da bir gün intihara əl ata bilər. Bu, insanın ruhi-psixoloji vəziyyətindən asılıdır. Çox təəssüf ki, cəmiyyət insanların sağlamlığının keşiyində dayanan bir həkimi itirdi. Amma bəlkə də bu gənc xanımın hansısa ciddi problemləri olub, amma kimsə bundan xəbər tutmayıb, heç kimə deməyib, danışmayıb problemləri barədə. Bəzən insanlar problemlərini ailə üzvlərindən, yaxınlarından, dostlarından gizlədir, problemləri ilə baş-başa qalır, nəticədə depressiv vəziyyətə düşürlər. Vəziyyətdən çıxış yolu tapa bilmirlər. Çıxış yolunu, həyatdan birdəfəlik getməkdə görürlər, təəssüf ki. Həyatda bəzən, küsən insanlar var. Yaşadığı həyatdan yorulmuş, uğurları yetərli olmayan, sevgiyə, qayğıya ehtiyac duyan, sevgisizlikdən yorulan insanlarla intihar arasında bir addım olur bəzən. Ona görə psixoloqlar daim bunu məsləhət görür ki, əgər bir insan sizin yanınızda "yorulmuşam", "bezmişəm", "bir gün eşidəcəksiz ki, özümü öldürmüşəm", ifadələrini işlədirsə və bunu hirslə, əsəbi şəkildə deyirsə, onun vəziyyətiylə tanış olmaq, probleminin nədən ibarət olduğunu öyrənmək, ona tək olmadığını, onu sevən, tək qoymayacaq insanlar olduğunu mütləq söyləməlisiniz və ona cidi dəstək göstərməlisiniz. Ən əsas mənəvi dəstəkdir. Məsləhət vermək lazımdır. Ən azından bir psixoloqa yönləndirmək lazımdır.

***"Ancaq həyatı normal şərtlər altında keçən, həyatı zahirən problemsiz görünən insan da bir gün intihara əl ata bilər. Bu, insanın ruhi-psixoloji vəziyyətindən asılıdır"***



**E.Eyyubova bildirdi ki, istər gənc olsun, istər yetişkin insan, hərənin özünə uyğun problemi var:**

- Gənclərin bəzən imtahandan aşağı göstərici əldə etdiyinə görə intihar etdiyini eşidirik. Başqa birisi tamam fərqli bir problemə görə intihar edir. Həyatında gözləmədiyi halda baş vermiş bir hadisə insanı depressiv vəziyyətə salıb, intihar həddinə çatdıra bilər. Psixoloq vəfat etmiş həkim-ginekoloqun ölümünə intihar deyil, təsadüfi bir qəzanın, diqqətsizliyin səbəb olmasını da istisna etmədi:

- Xəbər verildiyi kimi faktla bağlı araşdırma aparılır. Ölümün səbəbləri bilinəcək yəqin ki. Bəlkə də həkim xanım intihar etməyib, təsadüfi qəza nəticəsində yıxılıb. Yaxud başqa bir hadisə baş verib. Hər ölüm hadisəsini intihar kimi qələmə vermək də düzgün deyil. Ən doğrusu istintaq başa çatdıqda bilinəcək.

**Məlahət Rzayeva**



**ATƏT-in Minsk qrupunun amerikalı həmsədri dünən həmkarları ilə Qarabağın gələcəyini müzakirə etmək üçün danışıb. Amma rusiyalı həmsədr dəvəti qəbul etməyib. APA xəbər verir ki, bu barədə ABŞ dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə bürosunun "Twitter" hesabında məlumat verilib.**

Xatırladaq ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Bakıda azərbaycanlı

# Rusiya Qərbə "yox" dedi!

## Minsk qrupu faktiki olaraq ləğv olunub!

həmkarı Ceyhun Bayramovla birgə mətbuat konfransında bildirib ki, Minsk qrupu fəaliyyətini dayandırıb və bunun təşəbbüskarı ABŞ-la Fransa olub.

Rusiyayla Qərb arasında olan bu çəkişmənin Azərbaycan üçün hansı nəticələr doğuracağı marağa səbəb olub. Məsələ sosial şəbəkələrdə müzakirə olunub və istifadəçilər iki hissəyə bölünüb. Bir tərəf Minsk qrupunun öz intensivliyini itirdiyini müdafiə edib. Digər tərəf isə Rusiyanın Regiondakı hegemonluğunu göstərmək üçün danışıqlar masasına oturmaqdan imtina etdiyini deyib.

**Minsk qrupun real həyat əlaməti qalmadığını deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə bildirib ki, Rusiya onunla bir masaya oturmaq istəməyən tərəflərlə danışıqlardan imtina edib.**

"Minsk qrupu artıq əhəmiyyəti olmayan bir qurumdur və heç bir real nəticələr ortaya qoya bilməyib. Lakin biz ATƏT-in özünün Qarabağ münaqişəsində iştirakını dəstəkləyirik. ATƏT sülhyaratma missiyasında, həmin ərazilərin bərpasında və s. də müsbət rol oynaya bilər.

Minsk qrupunun isə fəaliyyətini Ermənistan tərəfi və himayədarları istəyir. Fransa, ABŞ və Rusiya Minsk qrupunu ayaqda saxlayaraq, bütün prosesi onun üzərindən həyata keçirmək istəyirlər. Azərbaycan isə istəyir ki, məsələni Azərbaycan, Ermənistan və digər əlaqədər ölkələr həll etsinlər. Ümumilikdə Ukrayna münaqişəsinə görə Qərb rəsmi Moskvanı qəbul etməməyə başladı və Rusiya ilə heç bir masada oturmayacağını bildirdi. Bundan sonra Rusiya məcbur oldu ki, belə addımlar atsın.

Çünki Rusiyanı artıq ciddi qəbul edən ölkə yox idi. Bundan sonra Minsk qrupu formatını canlandırmaq istəyən ABŞ-a Kremldən "yox" cavabı gəldi. Üç həmsədr ölkənin bir masaya oturmadığı bir qrup onsuz da faktiki olaraq ləğv olunub".

**Nihat Müzəffər**

## Rusiyanın qalib gəlməsi mümkün deyil

### Sammitdə qəbul edilən qərarlara uyğun olaraq Ukraynaya bütün sahələrdə dəstək veriləcək



**"ABŞ Rusiyaya qarşı koalisiyanı işlək vəziyyətə gətirib, Kremlin bu müharibədə qalib gəlməsi mümkün deyil". Bu sözləri "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib.**

Ekspert bildirib ki, sammitdə qəbul edilən qərarlara uyğun olaraq Ukraynaya bütün sahələrdə dəstək veriləcək: "Ukrayna Rusiya üçün yeni Əfqanıstan senarisidir. Bununla Rusiya siyasi-hərbi baxımından deqredasiyaya uğrayacaq. Ümumiyyətlə, yeni beynəlxalq münasibətlər sistemi formalaşır. "G7" ölkələri (Böyük yeddilər -red) Rusiyanın Şərqi Avropada, Mərkəzi Asiya və Cənubi Qafqazda mövqelərinin zəiflədilməsi istiqamətində yeni konsepsiya ortaya qoyub. Avropanın təhlükəsizliyi ilə bağlı yeni yanaşma ortaya qoyulur. Ukraynanın qalib gəlməsi üçün bu ölkəyə hərtərəfli dəstək verilməsi, yeni hücum silahları ilə təchiz olunması planlaşdırılır. Ukrayna NATO və Rusiya cəbhə xətti olmaqla yanaşı Rusiyanın geopolitik müstəvidə fövqəldövlət iddiasına son verilməsi üçün əsas pladsdarmdır. Qərb Rusiyanın qarşısından geri çəkilərsə, növbəti hədəf Moldova və Polşa ola bilər. Ona görə də bu müharibədə Qərb sonuna qədər Ukraynanın yanında olacaq". Müsahibimiz vurğulayıb ki, siyasi konfiqurasiyada Azərbaycan və Türkiyə Qərblə tərəfdaşlığa üstünlük verəcək: "Türkiyə də yeni siyasi-iqtisadi güc mərkəzi formalaşdırır. Azərbaycanla birgə Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə siyasi-iqtisadi və nəqliyyat sahəsində əməkdaşlığı inkişaf etdirir. Türkiyə, Azərbaycan və Qazaxıstan arasında Bakı bəyannaməsinin imzalanması Rusiyanın hər iki regionda təsirlərini azaldacaq".

**İsmayıl**

# Azərbaycanda meymunçiçəyi virusunun olması mümkündür

## Adil Qeybulla: "Çünki Azərbaycan qloballaşan dünyanın tərkib hissəsidir"



**Dünya artıq yeni bir pandemiya olan - meymunçiçəyi ilə üzüzədir. Getdikcə bir ölkədən digərinə yayılır. Qərb qonşumuz Gürcüstanda da meymunçiçəyi virusuna ilk yoluxma qeydə alınıb. Yer üzünə məlum olan xəstəliyin aktivləşdiyi bir dönəmdə suçiçəyinə yoluxma faktı da artıb.**

Ətrafımızda isə bəzi şəxslərin bu virusu keçirdiyinə rast gəlirik. İnsanlarda təbii olaraq, meymunçiçəyinə yoluxma ehtimalı ilə bağlı narahatlıq yaranır. Üstəlik, şəkillərdə onun çirkin görüntü yaradan mənzərəsinə baxmaq tripofobiyalı adamlar üçün olduqca dözülməzdir. Əlamətləri suçiçəyi ilə bənzəyir. Nəticədə insanlarda sual yaranır - görəsən, şahidi olduğumuz "zelyonkalanmışlar" suçiçəyidir, yoxsa meymunçiçəyi?

**Sualımızı cavablandıran tibb elmləri doktoru, professor Adil Qeybulla "Şərq"ə bildirib ki, bu gün meymunçiçəyi virusu bütün dünyada aktiv yayılıb:** "Əvvəlki klinik əlamətlər aşkarlanmır. Bəzi xəstələrdə az, müəyyən bir qismində səpkilərin aralıq nahiyəsində və s. olması ilə özünü göstərir. Yaxud temperaturun yüksəlməsi ilə müşahidə olunmur. Bu səbəbdən birmənalı şəkildə virusun Azərbaycanda mövcudluğu barədə fikir söyləmək çətindir. Hər bir halda ölkəmizdə rəsmi qeydiyyata alınmayıb. Amma bizdə də olması real və mümkündür. Çünki Azərbaycan qloballaşan dünyanın tərkib hissəsidir. Bütün dövlətlər lazımi tədbirlər görməlidir. O cümlədən dünya ölkələri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri əsasında hərəkət edilməlidir".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# İsraildəki diasporamız aktiv fəaliyyət göstərir

## Qarşılıqlı səfərlər də iki ölkə arasındakı mövcud əlaqələrin dərinləşməsinə xidmət edir

**İsrail bəzi Avropa dövlətləri, həm də Asiya ölkələri ilə sıx əməkdaşlıq edir. Lakin elə ölkələr var ki, İsrailin onlarla münasibətləri xüsusi strateji, müttəfiqlik xarakteri daşıyır. Belə ölkələr arasında Cənubi Qafqazın lideri Azərbaycan xüsusi olaraq seçilir. Azərbaycan bu gün İsrailin tərəfdaşları sırasında ön yerlərdə qərarlaşır.**

Azərbaycanla İsrail arasında dostluq münasibətləri mövcuddur və hər iki ölkə arasındakı ciddi əlaqələr qarşılıqlı maraqlara söykənir. Azərbaycan bu günə qədər beynəlxalq səviyyədə apardığı siyasət və müxtəlif dövlətlərlə, beynəlxalq təşkilatlarla olan münasibətlərində dünyada sülhün qorunmasında mühüm rol oynadığını sübut edib. Eləcə də Azərbaycan-İsrail arasındakı qarşılıqlı-faydalı münasibətlər dünyada və regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir. Azərbaycan-İsrail əlaqələri qarşılıqlı maraqlara söykənir və ikitərəfli xarakter daşıyır. İsrail ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illik tarixi ərzində bu iki ölkənin və onların xalqlarının münasibətləri çox yüksək səviyyədə inkişaf edib. Hazırda yəhudi dövləti ilə əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan arasında qarşılıqlı münasibətlər dünyaya qardaşlığın nümunəsi kimi göstərilir. Azərbaycan-İsrail əlaqələrinin inkişafında və möhkəmlənməsində siyasi və iqtisadi maraqlar mühüm rol oynayır. Eyni zamanda deyə bilərik ki, iki ölkə münasibətlərinin dirçəlməsində diaspor sahəsi də özünəməxsus rola malikdir. Heç kimə sirr deyil ki, dünyada ən güclü diaspor İsrailə məxsusdur. Bu gün İsrail diasporunun Azərbaycana münasibəti, habelə, iki ölkənin diaspor qurumlarının əməkdaşlığı digər ölkələr üçün nümunəvi xarakter alıb. Bu məqamda vurğulamaq yerinə düşər ki, müttəfiqlik əlaqələrinin gücləndirilməsi diaspor sahəsini də əhatə edir.

Son vaxtlar biz görürük ki, İsraildəki erməni icmaları, diaspor nümayəndələri iki ölkə arasında əlaqələri qısqanaraq fəallaşmağa, həmçinin İsraildə bəzi təşkilat və qurumların Ermənistanla qarşılıqlı münasibətlərini tənzimləməyə çalışırlar. Bu fakt ilk növbədə ondan xəbər verir ki, Azərbaycan və İsrail müttəfiqliyi Ermənistanı və erməni lobbisini ciddi narahat edir. Bütün bunlara baxmayaraq, iki ölkənin dostluğu və qardaşlığı diaspor müstəvisində davam etdirilir. Bu sahədə artıq çox mühüm işlərə başlanılıb desək, yanılmarıq. Belə ki, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bu günlərdə İsraildə səfərdə olub. Səfər İsrailin diaspor işləri üzrə naziri Naxman Şayın dəvəti ilə baş tutub.

Səfər çərçivəsində ölkələr arasında əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində danışıqlar aparılır, müxtəlif şəhərlərdəki Azərbaycan icmalarının nümayəndələri ilə görüşlər keçirilib.

Komitə sədri Fuad Muradovun Knessetdə keçirdiyi görüşlərdə, daha sonra İsrailin diaspor işləri üzrə naziri Naxman Şayla danışıqlarda qarşılıqlı fəaliyyət istiqamətləri, müxtəlif proqram və layihələr barədə ətraflı məlumat verilib, əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan-İsrail əməkdaşlığı və israillilər üçün Azərbaycanda investisiya imkanları, həmçinin iki ölkənin həyata keçirə biləcəyi potensial layihələr müzakirə olunub: "Fuad Muradovun səfər proqramında Azərbaycandan olan israillilərlə görüşlər mühüm yer tutub. Fuad Muradovun sözlərinə görə, onlar doğulduğu ölkə ilə sıx əlaqələri qoruyub saxlayır və israillilərin Azərbaycana münasibətinə müsbət təsir göstərir".

Azərbaycanda yəhudi icmasının, İsraildə isə Azərbaycan diasporunun fəaliyyəti yüksək qiymətləndirilib. Bundan əlavə, ölkəmizdən dünyanın müxtəlif yerlərinə köçmüş yəhudilərin həm də Azərbaycan icması olaraq birgə layihələrə cəlb edilməsi istiqamətində addımlar atılmasının vacibliyi diqqətə çatdırılıb.



Eyni zamanda, Azərbaycanla İsrailin etibarlı tərəfdaş olduqları, Vətən müharibəsi və post-müharibə dövründə İsrailin ölkəmizin haqlı mövqeyini dəstəkləməsi, xalqlarımızın dostluq əlaqələrinin tarixi ənənələrə malik olması məmnunluqla vurğulanıb. Görüşün sonunda Fuad Muradov israilli həmkarını Azərbaycana səfərə dəvət edib.

Azərbaycanın İsraildəki diaspor nümayəndəsi Səadət Şükürova komitə sədrinin səfərinin Azərbaycan və İsrail diasporunun birgə fəaliyyəti üçün uğurlu olduğunu bildirib: "Demək olar ki, artıq dünyanın əksər ölkələrində Azərbaycanın diaspor təşkilatları öz işlərini uğurla davam etdirir. Bu ölkələr arasında İsrail xüsusi qeyd edilməlidir. Ona görə ki, yəhudilərin Azərbaycanda tarixi köklərinin olması danılmaz faktdır. Hər iki xalq hər zaman dostluq və qardaşlıq şəraitində yaşayıblar. Tarixən də bir-birilərinin yanında olub, dünyaya birlik mesajı ünvanlayıblar. Xalqlarımız arasında siyasi, iqtisadi, mədəni, hərbi və digər sahələrdə əməkdaşlıq edilib.

Görüşlərdə Azərbaycan diasporunun İsraildə fəaliyyəti, Azərbaycan-İsrail əməkdaşlığı, Qarabağın bərpa-quruculuq prosesinə investisiyaların cəlb olunması üçün səylər və imkanlar, gələcək layihələr müzakirə olunub. Bu da hər iki xalqın birliyini göstərən önəmli faktordur".

**Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Mirzəzadənin "Şərq"ə sözlərinə görə, Azərbaycanla İsrail çoxşaxəli əməkdaşlıq edir. Hər iki ölkə bir-birinə hörmətlə yanaşır, sıx əməkdaşlıq edirlər. Bu cür səfərlər iki ölkə arasındakı mövcud əlaqələrin dərinləşməsinə, eləcə də yeni əməkdaşlıq sahələrinin axtarılmasına xidmət edir.**

Azərbaycan və İsrail arasında sıx dostluq əlaqələrinin olduğunu deyən deputat bu münasibətlərin digər ölkələr üçün də örnək ola biləcəyini söyləyib: "İsrail Azərbaycanda səfirlik açan ilk ölkələrdəndir. Bizim ölkələrimiz dost ölkə olaraq təhlükəsizlik, iqtisadiyyat, enerji, mədəniyyət və humanitar sahələrdə çox ciddi və hərtərəfli əməkdaşlıq edir. Ermənistanın torpaqlarımızı işğal etməsinə qarşı çıxıb, ərazi bütövlüyünü tanıyıb. Ölkə iqtisadiyyatına investisiya yatırıb və digər sahələrdə də əməkdaşlığa daim hazır olduğunu bəyan edib. Azərbaycanda aktiv bir yəhudi icması fəaliyyət göstərir və yəhudi xalqının tarixinin, mədəniyyətinin qorunmasına Azərbaycan dövləti böyük səy göstərib. Xaricdəki yəhudi diaspor nümayəndələri Azərbaycanda yəhudi nümayəndələrinə olan diqqəti digər ölkələrə nümunə kimi göstəriblər. Azərbaycanın İsraildəki diasporası da kifayət qədər böyük və aktivdir. İsraillə Azərbaycan əlaqələrinin möhkəmlənməsində onların fəaliyyətinin böyük rolu var" .

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Sanksiyalar qaçılmaz olacaq

## Belarusun müharibəyə qoşulması ağır nəticələr verəcək



**Rusiya Prezidenti Vladimir Putin Belarus rəhbəri Aleksandr Lukaşenko ilə görüşü zamanı Moskvanın yaxın aylarda "İsgəndər-M" raket sistemlərini Minskə təhvil verəcəyini bildirib.**

Putin deyib ki, ABŞ-ın Avropada 200 taktiki nüvə silahı var və onlardan istifadə üçün 257 təyyarə hazırlanıb. Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin və Belarus Prezidenti Aleksandr Lukaşenko üç gün - iyunun 23-dən 25-dək danışıqlar aparıblar. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Putin Lukaşenko ilə görüşdə Belarusa nüvə silahının verilməsindən deyil, texniki cəhətdən müxtəlif silah növlərini daşımağa qadir olan komplekslərin ötürülməsindən danışıb. Lakin iddia olunur ki, "İsgəndər-M" raket sistemləri həm adi, həm də "nüvə" variantda Belarusa veriləcək. Moskvanın bu addımı Belarusun da yaxın günlərdə Ukrayna ilə müharibəyə cəlb ediləcəyi kimi dəyərləndirilir.

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının müşaviri, politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Rusiyanın Ukraynaya ekspansiyasında Belarusun rolu və məsuliyyəti ən azı Rusiya qədərdir. Ekspert vurğulayıb ki, iki ölkə başçısının son görüşündən sonra Belarusa raket sistemləri ötürülməsi müharibənin gedişində əsaslı dönüş yaratmaq gücündə deyil:** "Belarus Rusiya üçün hər zaman sözün əsl mənasında for-post ölkə olub, indi də elədir. Belarusa hansısa silah sistemini gətirmək və yerləşdirmək problemli məsələ deyil və Rusiya üçün bir-iki günlük işdir. Belə bəyanatlar kimlərəsə hədə gəlmək məqsədi daşıyır. Müharibədən bir neçə ay əvvəl Rusiya Belarus-Polşa sərhədinə minlərlə suriyalı qaçqın yığmaqla kriz yaratmağa cəhd edirdi. Moskva Avropaya təzyiq etmək üçün bunu təşkil edirdi. İndi də Belarusa raket sistemləri daşımaqla, NATO-nun Belarusla sərhəd ölkələrinə təzyiq etməklə Ukraynaya dəstək olmaqdan çəkindirmək istəyir. Minsk özünü Ukrayna müharibəsindən kənar hesab etsə də, rus ordusunun Belarus ərazisindən Ukraynaya hücumu zamanı artıq Belarus öz tərəfsizliyini itirib və tərəf olub. Bu baxımdan Belarus ərazisinin və ordunun yenidən istifadə edilməsi yeni durum yaratmır".

**A.Qasımova görə, Belarus ordusunun da birbaşa müharibəyə qoşulması savaş arealını genişləndirər:** "Bu, NATO-nun daha böyük qüvvə ilə Ukraynaya dəstəyini labüd edər. Bu durumda təbii olaraq Ukrayna məğlub duruma düşər. NATO təmsilçilərinin əsas məqsədi Rusiyanı bu müharibədən məğlub çıxartmaqdır. Belarusun Rusiyanın yanında açıq şəkildə müharibəyə qoşulması Minsk üçün də ağır nəticələrə səbəb ola bilər. Rusiyaya tətbiq edilən sanksiyalar Belarusa da tətbiq olunar. Belarus hələki böyük ölçüdə Rusiya üçün nəfəslik rolu oynayır. İki ölkənin sanksiyalar altında qalması Rusiyanın işini daha çətinləşdirər".

**İsmayıl Qocayev**



# Lap ayda 60 manat olsun

## Dövlət hər bir uşağı 18 yaşına qədər "saxlamalıdır"

**Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin artırılması əhalinin sosial müdafiəsinin güclәndirilməsinə xidmət edəcək. Bunu Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində keçirilən növbəti iclasda millət vəkili Musa Quliyev deyib.**

O qeyd edib ki, maliyyə vəsaitinin böyük əksəriyyəti əmək pensiyaları üzrə maddi yardıma əməkhaqqı və sosial müavinətlər üzrə ödənişlərin maliyyələşdirilməsi üçün sərf ediləcək. M.Quliyev vurğulayıb ki, uşağın anadan olmasına görə müavinətlərə ayrılan vəsaitin daha 4 milyon manat artırılaraq 24 milyon manata çatdırılması nəzərdə tutulur. Onun sözlərinə görə, bu artım uşağın doğulmasına görə müavinətin məbləğinin bu ilin əvvəlindən 200 manatdan 300 manata çatdırılması ilə əlaqədardır. Qeyd edək ki, dəyişikliklər nəticəsində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla 5606,3 milyon manat təşkil edəcək ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 299,5 milyon manat və ya 5,6 faiz çoxdur. Uşağın doğulmasına görə birdəfəlik yardımın məbləğinin artması illərdir uşaq pulu gözləyənlərin ümidlərini artırıb. Uşaq pulu gözləyənlər ümid edir ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin artması, ümumilikdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar uşaq pulunun da bərpa olunmasıyla nəticələnər.

**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında qeyd etdi ki, birdəfəlik yardımla uşağın müəyyən yaş həddinə qədər aylıq ödənilən müavinəti bir-biriylə qarışdırmaq lazım deyil:**

- Uşağın dünyaya gəlməsinə görə ödənən birdəfəlik yardımla uşaqlara yetkinlik yaşına qədər ödənilən aylıq müavinəti səhv salırlar. Birdəfəlik yardım, adından da göründüyü kimi bir dəfə ödənilir. Uşaq dünyaya gəlib, dövlət buna görə birdəfəlik maddi yardım təyin edir. Amma aylıq müavinət başqadır. Bu, hər uşağa görə müəyyən yaş həddinədək dövlət tərəfindən ödəniləcək müavinətdir. Sovet vaxtı buna qısaca "uşaq pulu" deyirdilər. Ailələr bu yardımı alırdı. Az və ya çox, məsələ bunda deyil. Məsələnin məğzi dövlətin hər uşağa yetkinlik yaşına çatanadək müəyyən miqdar maddi yardım ayırmasındadı. Səbəb budur ki, ailə başçısı, uşağın valideynləri işsiz ola bilər, aylıq gəlirləri olmaya bilər, ümumən sosial vəziyyətləri, iqtisadi durumları aşağı səviyyədə ola bilər. Belə şəraitdə uşağın heç olmasa minimum xərcləri ödənə bilsin. Uşağın dünyaya gəlməsinə görə birdəfəlik müavinətin miqdarı 300 manata çatdırılıb. Əlbəttə, bu da yaxşıdır, irəliyə doğru bir addımdır. 300 manatla ailə hansısa problemini həll edə bilər, uşağın hansı məsrəflərini qarşılaya bilər. Lakin 300 manat indiki qiymət artımı şəraitində uzaqbaşı 1 aylıq xərcləri ödəyəcək. Uşaqlara yetkinlik yaşına qədər aylıq müavinətlər təyin edilərsə, bu, uşaqların müəyyən yaş dövrünə qədər hansısa məsrəflərini qarşılamaqda ialəyə böyük dəstək olar. Bilirsiz, məsələ, pulun miqdarında da deyil. Demirik, aylıq müavinət 100-200 manat, yaxud minimum istehlak səbəti dəyərində təyin edilsin, lap 50-60 manat olsun, amma olsun. Çünki aylıq müavinət dövlətin hər bir vətəndaşına diqqət və qayğısının göstəricisi hesab edilir. Oğlan uşaqları 18 yaşına çatdıqda hərbi xidmətə çağırış gəlir. Dövlət, tamamilə haqlı olaraq 18 yaşlı gənci Vətənə xidmət etməyə çağırır. Deyir ki, gəl, Vətən qarşısında, dövlət qarşısında borcunu ödə. Belədirsə, əvvəlcə dövlət uşağı 18 yaşına qədər "saxlamalıdır". Ailələr dövlətin dəstəyini hiss etməlidirlər. Valideyn görməlidir, gündəlik yaşayışında hiss etməlidir ki, dövlət bu uşağın normal şərtlər altında böyüyüb boya-başa çatmasına kömək edir. Deyilə bilər ki, uşaq bağçaları pulsuzdur, təhsil pulsuzdur, səhiyyə xidməti pulsuzdur. Lakin biz bunun heç də həmişə belə olmadığını bilirik. Uşaq pulsuz bağçaya gedə bilər, təhsilə görə də pul ödəməyə bilər, ailə. Amma bəzən elə xəstəliklər olur ki, onların müalicəsinə pul lazım olur. Dövlət tibb müəssisələrində heç də bütün analizlərin yoxlanması mümkün deyil, dərmanlar da apteklərdən pulla alınır. Mən hələ ağır, külli miqdarda vəsait tələb edən xəstəlikləri demirəm. Allah heç bir ata-anaya belə dərd göstərməsin. Qısası, valideynin övladının dövlətin qayğısı altında olduğunu hiss etməsi, görməsi üçün uşaqlara aylıq müavinət ödənməlidir. Bunu hansı formada həyata keçirmək olar, düşünsünlər, mexanizm hazırlasınlar. 1-3 yaş arası bir rəqəm təyin etmək olar, 3-7, 7-18 yaş arası başqa bir rəqəm. Bunlar həlli mümkün işlərdir. Əsas məqsəddir. İşə başlamaq lazımdır. Uşaqlara aylıq müavinət təyin edilsə, bu, dövlətimiz üçün də, genefond üçün də, ordumuz üçün də xeyirli olacaq. Son illərdə qadınlar 1, uzaqbaşı 2-dən artıq övlad dünyaya gətirmək istəmir. İşsizlikdən, bahalaşmadan, maddi sıxıntı yaşayacaqlarından çəkinirlər. Aylıq müavinət, hesab edirəm ki, ailələrin bu qorxusunu azaldacaq, daha çox uşağın dünyaya gəlməsinə xidmət edəcək. Nəticədə biz qarşıdakı illərdə demoqrafik problem ehtimalından uzaq olacağıq.

> **"Birdəfəlik yardımla uşağın müəyyən yaş həddinə qədər aylıq ödənilən müavinəti bir-biriylə qarışdırmaq lazım deyil"**

**Məlahət Rzayeva**

# Rusiyaya qarşı tətbiq olunan sanksiyalar Azərbaycan banklarına da mənfi təsir edib

## "Ən optimal variant Rusiyanın "MİR" sisteminin tətbiqini ölkədə aktuallaşdırmaqdır"



**Ukrayna müharibəsi ilə bağlı Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bu ölkədən başqa ölkələrə, o cümlədən Azərbaycana da pul köçürmələrini çətinləşdirib.**

Rusiyanın bir neçə aparıcı bankı tərəfindən aparılan əməliyyatlar Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı tərəfindən qadağan edilib. Onların hesablarından dollar və avro köçürmək artıq mümkün deyil.

"PAŞA Bank" ASC-nin komplayns və idarəetmə blokunun baş direktoru Anar Kərimov da sözügedən qadağaların pul köçürmələrini çox çətinləşdirdiyini qeyd edib: "Rusiya-Ukrayna müharibəsi hər iki ölkə ilə ticarət əlaqələri olan Azərbaycana təsirsiz ötüşməyib. Bildiyiniz kimi, Rusiyada sanksiya tətbiq olunan maliyyə institutlarının sayı getdikcə artmaqdadır. Sözsüz ki, bu da pul köçürmələrinə problemlər yaradır. Biz digər valyutalarla ödənişlər etməyə cəhd edirik. Bunu isə qanunvericilik icazə verdiyi şəkildə və həddə etmək mümkündür. Beynəlxalq sanksiyanın pozulmasından söhbət gedə bilməz".

**İqtisadçı-ekspert Əyyub Kərimli də "Şərq"ə açıqlamasında Rusiya banklarına tətbiq edilən embarqoların iki ölkə arasındakı pul köçürmələrinə ciddi təsir etdiyini deyib:** "Sözsüz ki, bu təsir ticarət əlaqələrindən də təsirsiz ötüşmür. Banklar arasındakı əlaqələr qırıldığı üçün Rusiya ilə əməkdaşlıq edən sahibkarlarımız, fermerlərimiz Rusiyaya satdıqları məhsulun ödənişini almaqda çətinlik çəkirlər.

Kartdan karta pul köçürmə mümkün olmadığı üçün ən optimal variant pul köçürmə sistemləridir. Bunlardan əhatə dairəsi daha çox olan "Zolotoya Korona"dır.

Rusiya banklarına qoyulan sanksiyalar Azərbaycan banklarına da mənfi təsir edir. Belə ki, xarici ticari əlaqələrlə aparılan tranzaksiyaların dövriyyəsinə mənfi təsir göstərir. Amma bir şeyi də deyim ki, hər nə qədər mənfi təsirlərini görsək də, mövcud qaydalardan kənara çıxmaq kimi bir məsuliyyəti öz üzərimizə götürməməliyik. Sadəcə olaraq banklar Rusiyanın tətbiq etdiyi daxili ödəniş proqramları ilə əməkdaşlıq edərək bu problemi aradan qaldıra bilərlər.

Ən optimal variant Rusiyanın "MİR" sisteminin tətbiqini Azərbaycanda aktuallaşdırmaqdır".

**Şəymən**



# Zəhərlənmələr gizlədilir

## Eyyub Hüseynov: “Bütün hallarda günahı istehlakçının özündə görürlər”

**Ötən həftə Bakı şəhərində yerləşən Dəmir yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin 2 tələbəsi - Balayev İslam Oruc oğlu və İmanov Bahadur Muradxan oğlunun kolbasa məhsulundan zəhərlənməsi ilə bağlı məlumat daxil olub. Lakin Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi yayılan informasiyaların təsdiqini tapmadığını diqqətə çatdırıb. Qeyd olunub ki, həmin şəxslər 2 saylı Kliniki Uşaq Xəstəxanasına müraciət ediblər:**

Daxil olan xəstələrə ilkin tibbi yardım göstərilib. Qida zəhərlənməsi diaqnozu təsdiqini tapmayıb. Onlara ”kəskin qastrit” diaqnozu qoyulub. Adıçəkilən tələbələrin vəziyyətləri qənaətbəxş olduğu üçün qısa müddət ərzində evə buraxılıblar”.

AQTA bir daha bildirir ki, zəhərlənmə halları ilə bağlı vətəndaşlar və media qurumları yalnız aidiyyəti dövlət orqanlarının təsdiqlədiyi rəsmi məlumatlara etibar etməlidirlər.

**Kolbasadan zəhərlənmə halları ilə bağlı ”Şərq”ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirib ki, AİB-in işinin təxminən 10 faizini qida məsələləri təşkil edir:**

”Təxminən 20 min istiqamətin kiçik bir hissəsi də qida problemləridir və istehlakçı hüquqlarını qoruyuruq. 26 ildir, qidadan zəhərlənmə hadisələrini izləyirəm. Artıq bununla bağlı konkret fikirlər formalaşıb. AQTA yaranmazdan öncə qidalara sertifikat verən və əhalinin sağlamlığı keşiyində duran təşkilat eyni idi. Bu, Səhiyyə Nazirliyi (SN) olub. Həmin dövrdə qidadan zəhələnən insanlar ciddi-cəhdlə gizlədilirdi. Çünki ictimaiyyətə məlum olarsa, iş məhkəməyə gedib çıxarsa, kiməsə kompensasiya vermək məcburiyyəti yaranardı. Daha sonra Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yaranıb. Təəssüf ki, AQTA da qidaya sertifikat təqdim edən orqanla birləşib. Hər zaman bu təşkilatların bir-birindən ayrı olmasının tərəfdarı olmuşuq ki, sertifikat verən orqan cavabdehlik daşısın. Azərbaycanda qidadan zəhərlənmə ümumdünya göstəricisindən təxminən 400 dəfə aşağıdır. 26 ildə bir dəfə də Azərbaycan həkiminin qida zəhərlənməsinin hansı səbəbə baş verdiyini göstərən sənədi öz xətti ilə yazıb, imzaladığını görməmişəm. Bütün hallarda günahı istehlakçının özündə görürlər”.

> ***"Agentlik məhsulların yalnız təhlükəsizliyini təmin edir. Keyfiyyət məsələsi kənarda qalır"***

*AİB rəhbəri vurğulayıb ki, hazır ət məhsulları bazarında böyük problemlər yaşanır:* ”KİV belə hadisələrin ifşasında çox böyük rol oynayır. Analoji durumlarda AQTA-nın İctimai Şuranın üzvi olaraq, KİV-də gedən informasiyaların izlənilməsini tələb edirəm. Agentliyin sədr müavini səviyyəsində işlərin yerinə yetirildiyi deyilsə də, tədqiqatlarımız əksini söyləyir. Həmçinin AQTA KİV-lə bərabər effektli işləsə, vəziyyət xeyli dəyişə bilər. Əfsuslar olsun ki, ölkədə biznes inkişafı siyasəti var. İstehlakçı hüquqlarının qorunması məsələsi yox səviyyəsindədir. Ölkədə standartlara uyğun, təmiz heyvan ətindən kolbasa istehsal edən müəssisələr mövcuddur. Həmçinin qeyd etmək lazımdır ki, kolbasa məhsullarının təxminən 70 faizi xarici malların payına düşür. Bu, yolverilməzdir. Hökumət elə bir fəaliyyət planı cızmalıdır ki, yerli kolbasa istehsalçıları stimullaşdırılsın və bu faiz onların hesabına dəyişdirilsin. Agentlik məhsulların yalnız təhlükəsizliyini təmin edir. Keyfiyyət məsələsi kənarda qalır. AQTA və dövlətin bu siyasəti vətəndaşların əlində tikə olan zaman zəhərlənməyəcəyinə zəmanət verir. Hökumət istəyir ki, bircə vergi yığılsın, büdcə dolsun. AİB bu mövqenin qəti surətdə əleyhinədir. Dəfələrlə Agentlikdə xaricdən gələn, xüsusilə hazır ət məhsullarının etiketindəki informasiya ilə tərkibinin yoxlanılması məsələsinə diqqət çəkmişəm. Təəssüf ki, rəhbərlik bununla razılaşsa da, işini yerinə yetirmir. Böyük aldadılma var. Təhlükəsiz və keyfiyyətsiz məhsullar insanların həyatına öz mənfi izlərini buraxır”.

**E.Hüseynov qida zəhərlənmələri ilə bağlı istehlakçılara üzünü tutub:**

”Şübhəli bir məhsula rast gəldikdə 1003 ”Qaynar xətti”nə zəng edərək, Agentliyə məlumat verin. Kolbasa və ət məhsullarının qiymətindəki paradoks əhalini çox narahat edir. Əlbəttə, istehlakçıların ucuz və keyfiyyətli mal əldə etməsinin tərəfdarıyıq. Agentlik mütəmadi şəkildə monitorinqlər həyata keçirməlidir. İstehlakçıların da malın sertifikatını tələb etmək, saxlanma şəraiti ilə tanış olmaq kimi hüquqları var.

Alıcılar diqqətli olmalı, yerli məhsullara üstünlük verməlidir. Həmçinin xaricdən gələn ət məhsullarının kimyalaşdırıldığından xəbərdar olmalıdır”.

**Sücayət Mehti**

## Günel Sevdanın hamilə olduğunu açıqladı



**Müğənni Sevda Yahyayeva ana olacaq.**

Bu haqda müğənni Günel Zeynalova paylaşım edib. İfaçılar eyni məclisdə səhnə bölüşüblər. Günel Sevda ilə fotosunu paylaşaraq ”Mənim hissimə baxın, göbəyini tutub dedim ki, burada nəsə var. Düz bildim və çox sevindim. Gözəl ana olacaqsan, Sevkam” sözlərini yazıb.

## “Nar" eşitmə məhdudiyyətli şəxslər üçün peşə təlimləri layihəsinə yenidən start verdi




**”Nar” fiziki məhdudiyyətli şəxslərə dəstək verilməsi məqsədilə artıq 3-cü dəfədir, təşkil olunan ”Təlim Məktəbi” sosial layihəsinə yenidən start verdi.**

Layihənin əsas məqsədi nitq və eşitmə məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyasına və maliyyə azadlığına dəstək olmaq üçün onları peşə təlimləri ilə təmin etməkdir. Missiya çərçivəsində bu gənclər üçün əmək bazarında daha çox tələbat olan xüsusi peşə təlimlərinin təşkil edilməsi nəzərdə tutulub.

Ümumilikdə 6 ay davam edəcək layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 15-30 yaş arasındakı 20 gənc iştirak edəcək. İlkin mərhələdə həftəiçi hər gün olmaqla 3 ay boyunca xanımlara peşəkar mütəxəssislər tərəfindən manikür ustalığı təlimləri keçiriləcək.

Təlimlərin sonunda isə iştirakçılara Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi tərəfindən müvafiq sahə üzrə şəhadətnamə təqdim olunacaq. Təlim məktəbi” layihəsinin tərəfdaşı ”Karlara Dəstək” İctimai Birliyidir.

*Qeyd edək ki, ”Nar”ın ”Təlim Məktəbi” layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində nominasiyasında qalib olub. ”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.*



## Rüşvət, tanışlıq böyük rol oynayıb

### 6 nəfər ali təhsilsiz direktor müavininin işdən çıxarılması biabırçılıqdır

**Məktəblər təlim-tərbiyə ocağıdır. Əsas məqsəd isə cəmiyyət üçün savadlı kadr yetişdirməkdir. Lakin müəyyən hallarda məktəblərdə paradoks baş verir. Yəni ali təhsilsiz şəxslərin məktəblərdə vəzifə tutduqları ilə qarşılaşırıq.**

Analoji hadisə Kəlbəcər məktəblərində yaşanıb.

Belə ki, altı diplomsuz direktor müavinləri vəzifələrindən azad ediliblər. Səbəb isə onların ali təhsilinin olmamasıdır.

Kəlbəcər Rayon Təhsil Şöbəsindən faktı təsdiqləyiblər.

**Təhsil eksperti Nadir İsrafilov bildirib ki, Kəlbəcər, Laçın kimi məktəblər bir az diqqətdən kənar qalıb:** ”Qaçqın məktəbləridir deyə, nəzarət lazımi səviyyədə olmayıb. 6 nəfər diplomsuz direktor müavininin işdən çıxarılması siqnaldır. Regionlarda, ucqar kəndlər kadr çatışmazlığına görə qeyri-ixtisas fənlərdə dərs deyən müəllimlər var.

Lakin direktor müavininin savadsız olması təhsilə başucalığı gətirmir. Direktor müavini seçiləndə təcrübəli biri müəyyənləşməlidir. Kollektivdə tanınmalıdır. Müəllimlə bağlı belə hallara yol verilir.

Direktor müavini vəzifəsi məsuliyyət daşıyır, məktəbi idarə edəndir.

Təhsil Nazirliyi siqnalı eşidib digər məktəblərdəki vəziyyəti yoxlamalıdır. Diplomsuz direktor müavinləri varsa, məktəbin nüfuzundan söhbət gedə bilməz”.

**Təhsil eksperti Elçin Əfəndi isə 6 nəfər ali təhsilsiz direktor müavininin işdən çıxarılmasına belə münasibət bildirib:** ”Nə etdiklərini özləri də bilmirlər. Əlbəttə, başdan yanlışdır. Onları işə necə qəbul etdikləri maraqlıdır. Hər halda rüşvətlə, tanışlıq böyük rol oynayıb”.

**Aygün Tahir**

# Yük maşınları ilə bağlı qəzalar artıb

## Kənd təsərrüfatı texnikaları yola çıxmazdan əvvəl yoxlanmalıdır

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Kənd təsərrüfatı texnikasını idarə edən sürücülərlə bağlı xəbərdarlıq edib.**

Aqrar Xidmətlər Agentliyinə ünvanlanan müraciətdə qeyd olunur ki, bölgələrdə kənd təsərrüfatı məhsullarının yığımı ilə əlaqədar həmin yük maşınlarının tez-tez avtomobil yollarında hərəkət etməsi qəza şəraiti yaradır: ”Son vaxtlar respublikamızın əksər bölgəsində kənd təsərrüfatı məhsullarının yığımı ilə əlaqədar həmin sahədə istifadə olunan texnikanın tez-tez avtomobil yollarında hərəkət etməsi və müxtəlif növ malların daşınması halları müşahidə olunur. Bəzən ayrı-ayrı sürücülər tərəfindən belə daşımaların texniki standartlara uyğun gəlməyən, xarici işıq cihazları nasaz, dövlət qeydiyyat nişanları yerində olmayan kənd təsərrüfatı texnikaları ilə həyata keçirilməsi kimi qayda pozuntularına yol verilir ki, bu da ağır yol-nəqliyyat hadisələrinin baş verməsinə real şərait yaradır.

Belə qəzaların qarşısının alınması məqsədilə kənd təsərrüfatı sahəsində işləyən və bu növ məhsulların daşınması fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərdən xahiş olunur ki, kənd təsərrüfatı məhsullarının daşınması yalnız texniki cəhətdən saz vəziyyətdə olan nəqliyyat vasitələri ilə həyata keçirilsin, həmçinin kənd təsərrüfatı texnikasının avtomobil yolu, yaxud əkin sahəsində hərəkət etməsindən asılı olmayaraq sürücüsünün alkoqollu içkilərin və ya psixotrop maddələrin təsiri altında, habelə yorğun və yuxulu halda sükan arxasına əyləşməməsinə xüsusi diqqət yetirilsin”.




**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərovun ”Şərq”ə açıqlamasına görə, kənd təsərrüfatı texnikalarının ümumi istifadə üçün nəzərdə tutulan avtomobil yollarında hərəkət qaydaları mövcuddur:** ”Kənd təsərrüfatı məhsullarının daşınması üçün istifadə olunan xüsusi texnikalar, o cümlədən traktor və kombayn kimi aqrar avtomobillərin sürücüləri müəyyən olunmuş hərəkət qaydalarına əməl etməlidir. Baş verəcək hər hansı bir qanun pozuntusunda, nasaz texnikanın yola çıxmasında sürücülərlə yanaşı texnika sahibi olan fermerlər, birləşmiş kənd təsərrüfatları da məsuliyyət daşıyır.

Xüsusən də bölgələrdə yol infrastrukturu bərbad vəziyyətdədir, yolların işıqlandırılması yox səviyyəsindədir. Yol xətləri doğru deyil, çala- çuxurların olması da ağırtonnajlı texnikaların qəza şəraiti yaratmasına səbəb olur. Bu səbəbdən də Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi öncədən bu cür xəbərdarlıq edir. Xüsusən də yay mövsümündə problem daha da aktuallaşır. Taxıl biçininə görə kombaynların tez-tez yollarda hərəkətini görürük. Əksər sürücülər yük maşınlarını ötüb keçmə qaydalarının necə olduğunu bilmir”.

Problemin həllinə gəldikdə isə ekspert deyib ki, bu cür xəbərdarlıqların olması labüddür. Birdəfəlik həlli yolu olmasa da, nəzarət mexanizminin təkmilləşdirilməsi ilə müsbətə doğru dəyişikliklər olacaq. DYP əməkdaşlarına xüsusi icazə verilməlidir ki, reyd keçirərək kənd təsərrüfatı texnikalarını yollara çıxmazdan əvvəl yoxlasınlar. Yaxud da sahibkarlar, fermerlər özləri tabelikərində olan texnikanın hansı vəziyyətdə olması ilə bağlı DYP-yə yazılı bildiriş göndərsinlər.

**Şəymən**

## Aynişanın yeni imici bəyənilmədi



**Bloger Aynişan Quliyeva imicində dəyişiklik edib.**

Olay xəbər verir ki, o, tünd rəng saçlarını açdırıb. Onun açıq və tünd sarı rənglərdən ibarət refleli saç modeli izləyiciləri tərəfindən bəyənilməyib. Həm də tünd dəri rəngi ilə diqqət çəkən influenserin bu görüntüsünün yaxşı olmadığını deyənlər olub.

İzləyiciləri ”Saç rəngi olmayıb” kimi şərhlər yazıb.

## Cəlilabadda kartof kəskin ucuzlaşıb

### Məhsul əkin sahələrində çürüyür




**Cəlilabad rayonunda kartof əkin sahələrində çürüyür.**

Bu barədə ”Report”un yerli bürosuna fermerlər məlumat verib.

Onların sözlərinə görə, əvvəllər qiymətlər münasib olsa da, son günlər məhsulun qiymətinin aşağı düşməsi onları çətin vəziyyətə salıb:

”Məhsulumuz boldur, amma alıcı yoxdur. Kartof yığımı davam edir. Məhsulun qiymətlərinin kəskin şəkildə aşağı düşməsi və məhsulun satışındakı durğunluq bizi narahat edir. Bir neçə həftə əvvəl 1 manata satdığımız faraş kartofun indiki qiyməti 25-30 qəpik civarındadır. Bu qiymətə məhsulun satılması isə ona çəkilən xərcləri belə ödəmir”.

Onlar qeyd edirlər ki, kartofu məcbur dəyər-dəyməzinə satırlar:

”Sahədə qalsa, qurd yeyəcək. Həşəratlar daraşacaq, heç kim almayacaq. Riskli olsa belə, elə fermer var ki, məhsullarını hələ yığmayıb. Ola bilsin ki, qiymətlər qalxsın. Lakin havalar da isti keçir, kartofun torpağın altında çürümə riski var”.

*Qeyd edək ki, Cəlilabad kartofu daha çox Rusiya Federasiyasına ixrac olunur. Hazırda isə Rusiyanın müxtəlif vilayətlərində də kartof yığımının başlaması Cəlilabadda istehsal olunan kartofa tələbatı azaldıb. Mütəxəssislərin fikrincə, bölgədə emal müəssisələrinin yaradılması bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasına kömək edə bilər.*

**Elan**

Milli Aviasiya Akademiyası tərəfindən İmanzadə Elmar İlham oğluna verilmiş uçuş mühəndisliyi 1119a tələbə bileti itdiyi üçün etibarsız sayılır.

“Azinteroil” MMC-nin nizamnaməsinin 9.1-ci bəndinə əsasən 30.06.2022-ci il tarixdə, saat 11:00-da, Bakı şəhəri, Nərimanov rayonu, Y.V.Çəmənzəminli küçəsi 16 ünvanında “Azinteroil” MMC-nin təsisçilərinin ümumi yığıncağı keçiriləcəkdir. Ümumi yığıncağın gündəliyinə “Azinteroil” MMC-də 2019-2022-ci illər üzrə keçirilmiş auditor yoxlamalarının nəticələrinə dair rəylərin, həmin illər üzrə cəmiyyətin mənfəət və zərərinə dair hesabatların, habelə göstərilən illər üzrə cəmiyyətin adından bağlanılmış müqavilələrin müzakirəsi və müvafiq qərarların qəbulu daxildir.

*Qeyd: zəruri məlumatlarla bağlı +994552228848 mobil nömrəsi ilə əlaqə saxlamağınız tövsiyə olunur.*

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1772**

# 101 yaşlı nəzarətçinin məhkəməsi oldu

O, 3518 dustağın ölümündə iştirak etməkdə ittiham olunur



**Almaniyanın Berlin şəhərində 101 yaşlı Jozef Şutzun növbəti məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, faşist əsir düşərgəsinin keçmiş nəzatərçisi 1942-1945-ci illərdə 3518 dustağın ölümündə iştirak etməkdə ittiham olunur. Prokurorluq onun 5 il azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəməyə əlil arabasında gətirilən şəxs ittihamları rədd edərək faşist Almaniyasının ordusu və polisi ilə əlaqələri barədə deyilənləri yalan adlandırıb.

Təqsirləndirilən şəxsin vəkili bildirib ki, Almaniya tarixinin ən yaşlı müttəhimi ilə bağlı bütün proseslər dayandırılmalıdır. Müstəntiqlər 1973-cü ildən indiyədək onunla bağlı heç bir sübut tapa bilməyiblər. Müharibənin şahidləri artıq həyatda deyil, sağ qalanlar da danışmaq qabiliyyətini itirib.

# Yaponiyada gilasın bir ədədi hərracda 290 dollara satılıb



**Yaponiyada nadir gilas növünün 15 ədədi hərracda 4,4 min dollara satılıb.**

Trend-in məlumatına görə, Aomori prefekturasında keçirilən hərracda gilasın bir ədədinin qiyməti 290 dolları ötüb.

Hərracda satışa ümumilikdə 50 qutu çıxarılıb. Hər qutuda 15 ədəd gilas olub.

*Qeyd edək ki, "Juno Heart" növlü gilas bahalı hədiyyə qismində məxsusi olaraq istehsal edilib. Bir giləmeyvənin diametri 2,8 santimetri keçməməli, ideal rəng və formada olmalıdır.*

# Yarım kq qızılı belə oğurladılar



**Türkiyənin Adana şəhərində iki nəfər zərgərlik əşyaları satılan mağazaya silahlı basqın edib.**

Oxu.az xəbər verir ki, hadisə anbaan mağazanın təhlükəsizlik kameraları tərəfindən qeydə alınıb.

Bildirilir ki, basqın nəticəsində mağazadan yarım kiloqrama yaxın qızıl oğurlanıb.

Artıq cinayəti törədən şəxslər saxlanılaraq istintaqa cəlb olunub.

# Dondurmadan qurbağa çıxdı



**Kişi bir qab dondurma alıb və orada ölü bir qurbağa tapıb.**

**Milli.Az bildirir ki, o, Reddit-də xoşagəlməz kəşfin fotosunu yerləşdirib.**

**Yayımlanan şəkildə, qurbağanın bədəninin donduğunu görə bilərsiniz. Yazı müəllifi deserti haradan aldığını və ya onu istehsal edən firmanı qeyd etməyib.**

**Bir gün ərzində kişinin paylaşımı yüzlərlə şərh topladı. "Daha pis ola bilərdi. Məsələn, qurbağa yalnız vedrənin dibində tapılsaydı", - istifadəçilərdən biri yazdı.**

# Narkotikin təsiri altında olan qadın siçanı yedi



**Böyük Britaniyada 39 yaşlı yerli sakin heyvanlara qarşı amansızlıq etdiyi üçün həbs edilib.**

**Oxu.az xəbər verir ki, bu barədə "Daily Mail" məlumat yayıb.**

**Sosial şəbəkələrdə qadının əvvəlcə qızının dağsiçanını öldürməsi, sonra başını geri atması, heyvanın cəsədini ağzına qoyması və üstündən də su içməsini əks etdirən video yayılıb. İlkin məlumata görə, cinayəti törədən şəxs qadağan olunmuş maddələrin dozasını qəbul etmək üçün belə hərəkətə məcbur olub.**

**Həbs olunduqdan və haqqında cinayət işi açıldıqdan sonra britaniyalı qadın istintaq müddəti ərzində evə buraxılıb.**

# Donuz ürəyi köçürülmüş insan ölüb

Ölümün əsl səbəbi orqan rəddi deyil, viral infeksiyadır



**Həkimlər ilk dəfə donuz ürəyinin köçürülməsindən sonra ölən kişinin tibbi qeydlərini təhlil ediblər.**

**Milli.Az xəbər verir ki, Merilend Universiteti bildirib ki, ölümün əsl səbəbi orqan rəddi deyil, viral infeksiyadır.**

**Yanvar ayında 57 yaşlı Devid Bennet donuz ürəyinin transplantasiyası əməliyyatı keçirib. Bir neçə aydan sonra kişi ölüb. Yarılma nəticəsində müəyyən etmək mümkün olub ki, onun ölümünə ürək əzələsinin qalınlaşması səbəb olub, nəticədə normal fəaliyyət göstərə bilməyib. Bundan əlavə, transplantasiya edilmiş orqanda donuz sitomeqalovirusu aşkar edilib. Mütəxəssislər qarşıdakı əməliyyatlarda heyvanların yetişdirilməsi və cərrahi müdaxilələr zamanı donor orqanlarda infeksiyalara nəzarəti gücləndirməyi planlaşdırırlar.**











# Türkiyəni göz yaşlarına boğdu

## Azərbaycanda da çox sevilən ulduz aktyor həyatla vidalaşdı

**Türk kinosunun parlayan ulduzu, cazibəli görünüşüylə könülləri, canlandırdığı obrazlarla film dünyasını fəth edən Cüneyt Arkın həyata əlvida dedi. Cüneyt Arkın Azərbaycanda da sevilirdi. Türk sinemasının böyük bir dövrünə möhür vurmuş aktyorun çəkildiyi filmlər Azərbaycanda da çox yayımlanıb, tamaşaçı sevgisi qazanıb. Ulduz aktyorun səhhətində problemlər olduğu bəlli idi.**

Bir neçə dəfə xəstəxanada müalicə olunmuşdu. Dünənsə Cüneyt Arkının ruhu Haqqın dərgahına qovuşdu. Aktyorun ölümü Türkiyəni göz yaşlarına boğdu. Ölkəmizdə də dünən sosial şəbəkələr Cüneyt Arkının rəsmləri ilə doldu. Onun haqqında "uşaqlığımızın qəhrəmanı", "Türk dünyasının Alen Delonu" yazanlar da çox oldu. Cüneyt Arkının həyatı və kino aləminə gəlişi barədə "Milliyet.com.tr"də yer alan məlumatı oxucularımızın diqqətinə çatdırırıq. "Yeşilcam"ın unudulmaz aktyoru Cüneyt Arkın - əsl ad və soyadı Fahrettin Cüreklibatır 8 sentyabr 1937-ci ildə Eskişəhərdə dünyaya gəlib. Atası Hacı Yaqub Cüreklibatır Qurtuluş savaşının əsgəri olub. Cüneyt Arkın Eskişəhərdə məktəbə gedib, 1961-ci ildə İstanbul Tibb Fakültəsini bitirib. Eskişəhərdə hərbi xidmətdə ikən o zaman "Şəfəq gözətçiləri" filminin rejissoru Halit Rəfiqin diqqətini çəkib. Hərbi xidmətini bitirdikdən sonra bir müddət Adanada həkim işləyib. 1963-cü ildə Halit Rəfiq onu kino çəkilişlərinə dəvət edib. 2 il ərzində 30 filmdə çəkilib. İstanbula qastrola gələn "Medrano" sirkində akrobatlığın sirlərinə yiyələnib. Bu, aktyora aksion filmlərində dublyorsuz oynamağa imkan verib. Sonrakı filmlərdə canlandırdığı Battal qazi, Malkoç oğlu, Qara Murad xarakterləri ilə türk insanının rəğbətini qazanıb, adını türk kino tarixinə "qızıl hərflərlə" yazdırıb. "Xain Bizansa qarşı döyüşən" türk oğlu xarakterlərindən savayı romantik aşiq, əzabkeş ata obrazlarıyla da tamaşaçıların sevimlisinə çevrilib. 1964-cü ildə həkim xanım Gülən Mocan ilə evlənib, qız övladları dünyaya gəlib. 1968-də aktyor ikinci dəfə Betül Işıl ilə ailə həyatı qurub. Bu evlilikdən Kaan və Murat adlı oğulları var. Yaşlı vaxtlarında Cüneyt Arkın kinodan uzaq düşsə də, bir neçə filmdə - "Dünyanı qurtaran adam" və son ekran işi "Quruluş Osman"da çəkildi. Cüneyt Arkının son sosial media paylaşımı isə 19 iyun - Atalar günündə oğullarına yazdığı mesaj olub. Ulduz aktyorun ölümünə təəssüflənən Türkiyə sənətçiləri sosial mediada kədərli paylaşımlar edərək Cüneyt Arkın barədə "dünya "ulduzu" ola bilərdi", "türk kinosu bir usta oyunçunu, nəhəng çinarını itirdi", kimi mesajlar yazıb. Türk kinosunun başqa bir "ulduzu" Türkan Şoray isə "Canım Cüneyt... Bundan sonra, yoxluğunu bilmək, düşünmək elə bir açıdır ki Səni sonsuza qədər qəlbimdə yaşadacağam. Sinema və bütün sinema sevərlərdə yerin heç vaxt dolmayacaq", yazıb.



**Məlahət Rzayeva**



# Qızmar istilərdən ehtiyatlı olun!

## Terapevt günvurmanın əlamətləri və ilkin tibbi yardımla bağlı tövsiyyələrini verir

**"İstivurma uzun müddət xarici mühitdə qalma nəticəsində bütün bədənin həddindən artıq istiləşməsindən yaranan vəziyyətdir. Bu zaman orqanizmin ümumi isinməsi, bədən hərarətinin yüksəlməsi və nəticədə vacib funksiyalarının pozulmasına səbəb olur".**

"Şərq" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyev deyib. O bildirib ki, istivurmanın bir növü olan günvurma birbaşa günəş şüalarının düşməsi nəticəsində beyin damarlarının artan temperaturun təsirindən genişlənməsi ilə yaranır: "İstivurma günvurmaya nisbətən daha tez baş verir. İstivurma üçün günəş əsas şərt deyil, hava buraxmayan isti paltarda fasiləsiz işləmək, isti havada uzun müddətli və yaxud bir neçə saat havasız, pis ventilyasiya olan yerdə keçirmək kifayət edir. Günvurmanın əsas əlamətləri - üzün qızarması, şiddətli baş ağrısı, başgicəllənmə, gözlərin qaralması, ürək bulanma, qusma, burundan qanın axması və görmə qabiliyyətinin pozulmasıdır.

Xəsarət alan şəxsi dərhal təmiz havaya, kölgəyə, sərin və normal ventilyasiya olan yerə çıxartmaq, paltarının yaxasını açmaq və başı azca qaldırılmış vəziyyətdə kürəyi üstə uzatmaq lazımdır. Başının üstünə soyuq kompress (yaş sarğı) qoymaq, bədənini yaş parçaya bükmək və yaxud soyuq su vurmaq (çiləmək), çoxlu sərin su vermək məsləhətdir. Tənəffüs pozulduğu halda olaraq pambığı naşatır spirti ilə isladıb, bir neçə dəfə ehtiyatla xəsarət alanın burnuna yaxınlaşdırmaq lazımdır. Əgər xəsarət alan insan özündən gedib, nəfəsi dayanıb, nəbzini əl ilə yoxlayıb tapmaq olmur və ətrafda həkim yoxdursa, bu halda davamlı süni nəfəsvermə və ürəyin qapalı masajı etmək tövsiyə olunur".

Nazirlik rəsmisi günvurmadan əziyyət çəkənlərin sayını da açıqayıb. O bildirib ki, yay mövsümi başlayandan hələki anomal isti hava şəraiti qeydə alınmayıb: "Amma mövsüm başlayandan etibarən Bakı şəhər Təcili və Təxirəsalınmaz tibbi yardım stansiyasına bununla bağlı bir neçə müraciət daxil olub. Belə ki, 12 nəfər günvurmadan əziyyət çəkərək təcili yardıma müraciət edib. Onlardan 10-na xəstəxanada, 2 nəfərə isə yerində yardım göstərilib. Uşağı birbaşa günəş şüalarına məruz qalmasından qorumaq məqsədilə ilk növbədə onun başını və ya bədənini panama və ya dəsmal ilə örtmək lazımdır. Ondan başqa, istivurmanın qarşısını almaq üçün çimərlikdə üzməy ilə qum vannasının qəbulunu növbə ilə etmək məsləhət görülür. Körpənin rasionuna, xüsusilə də gündüz saatlarında və günəş şüası qəbulunu planlaşdırıldığı zaman, meyvə-tərəvəz məhsulları daxil olmalı, yağlı qidalar və ət məhsullarını məhdudlaşdırmalıdır. Qazsız içkilər və şəkərsiz kompotlara üstünlük verilməsi tövsiyə olunur. Bu profilaktik tədbirlərinə riayət edilərsə, istivurma təhlükəsi körpələrdən yan keçəcək".

Terapevt isti günlərdə açıq havada işləyərkən nələrə diqqət yetirmək lazım olduğunu da vurğulayıb: "Açıq havada, xüsusilə isti yay günlərində günəşin altında olmağınız səhər 10-na kimi və axşam 6-dan sonra tövsiyə olunur. Zərurət yarandığı halda çölə çıxarkən günəş kremi məhsullarından istifadə nəticəsində dərini günəş ləkələrinin yaranmasından xilas edə bilərik. Baş nahiyəsini günəşdən qorumaq üçün gün eynəkləri, qoruyucu papaqlar və çətirlərdən istifadə edilməlidir. Yüngül yumşaq materiallardan hazırlanan paltarı geyinmək məsləhətdir. Həmçinin çox maye qəbul etməsi məsləhətdir, xüsusən təmiz, sərin suyu. Onu da nəzərə almaq lazımdır ki, çox isti havada həddindən artıq idman etmək insan səhhəti üçün təhlükəli ola bilər".

# Qarpız avqustda yeyilməlidir

Hər bostan bitkisinin öz zamanı var



**İsti yay aylarında suya alternativ olaraq istifadə etdiyimiz qida qarpızdır.**

Bu bostan bitkisinin yeyilmə zamanı var. Bu zamana riayət etmədikdə bəzən zəhərlənmə hallarına rast gəlinir. Ümumiyyətlə isə son illərdə qarpızdan zəhərlənmə çoxalıb. Hətta bu zəhərlənmələrin bəziləri ölümlə nəticələnib.

Sosial şəbəkələrdə da bu mövzu müzakirə edilir. Bəziləri qarpızı indi yediyini deyir. Digərləri isə təmiz qarpız yemək üçün avqust ayını gözləməli olduğumuzu iddia edir.

**İnfeksionist-hepatoloq Mərdan Əliyev də "Şərq"ə bildirib ki, qarpızdan zəhərlənmənin əsas səbəbi onlara verilən silitir gübrələrin çox olmasıdır:** "Qarpız əkib-becərənlər onun tez yetişməsi və iri olması üçün bəzi preparatlardan istifadə edirlər. Bu isə zəhərlənmə hallarına gətirib çıxarır. Buna görə də qarpızı öz mövsümündə yeməyi məsləhət görürəm. Mövsüm zamanı tərkibində olan maddələr azalır. Qarpız bu aylar yeni yetişdiyi üçün baha qiymətə satılır.

Buna görə də daha çox gübrədən istifadə edirlər. Avqustda isə artıq gübrələrin miqdarı azalır və bu ayda qarpız yemək daha təhlükəsiz hesab olunur".

**Nihat Müzəffər**

# Atəşböcəyi robotlar hazırlayıblar

Onlar xilasetmə əməliyyatlarına kömək edəcək



**ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun (MIT) alimləri axtarış və xilasetmə missiyalarına kömək etmək üçün kiçik atəşböcəyi robotları hazırlayıblar.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, kiçik uçan qurğular keçən ilin sonunda yaradılıb, lakin flüoresan işıqla arxa işıqlandırmanın modifikasiyası və tətbiqi yalnız bu yaxınlarda həyata keçirilə bilib. Atəşböcəkləri həşərat qanadlarının çırpılmasını təqlid edən süni əzələləri yığaraq uça bilirlər.

*Qeyd edildiyi kimi, robotlar uçuş zamanı parlama qabiliyyətinə malikdir. İşıq şüalanması sayəsində robotlar bir-biri ilə əlaqə saxlaya, müxtəlif mesajlar ötürə, həmçinin operatorlara məlumat göndərə bilirlər. Qurğuların dağılmış binalarda sağ qalanları tapması, sonra isə xilasedicilərə siqnal ötürməsi planlaşdırılır. Gələcəkdə mütəxəssislər hərəkət izləmə sistemini optimallaşdırmaq istəyirlər ki, o, real vaxt rejimində robotları izləməyə imkan verəcək.*